HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

VERGİLƏR NAZİRLİYİ



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 34 (774) ■ 2 sentyabr 2015 www.vergiler.az Qiymәti: 40 qәp.

## Azərbaycan regionun söz sahibinə çevrilir

Azərbaycan təkcə sosial-iqtisadi deyil, siyasi müstəvidə də bir çox problemləri geridə qoyub. Bir vaxtlar bədnam erməni lobbisinin təsiri ilə müxtəlif təzyiqlərə, təhdidlərə, ədalətsizliklərə məruz qalan, informasiya blokadası şəraitində haqlı mövqeyini dünyaya çatdıra bilməyən Azərbaycan bu gün tamam fərqli statusda çıxış edir. Hazırda bütün regional məsələlərdə əsas oyunçulardan biri olan Azərbaycansız regiondakı strateji əhəmiyyətli heç bir layihə gerçəkləşə bilməz.

Ölkə rəhbərinin həyata keçirdiyi çoxşaxəli islahatlar Azərbaycan dövlətinin siyasi xarakterini və inkişaf yolunu müəyyən edir. Ötən 12 ildə uğurla yürüdülən siyasət deməyə əsas verir ki, respublikamız öz inkişafının Qərb modelini müəyyənləşdirərək davamlı iqtisadi inkişafa və demokratiyaya doğru kor-koranə deyil, təkamül yolu ilə irəliləməyə üstünlük verir.

Erməni lobbisinin təsiri altında olan bəzi dairələr Azərbaycanın nüfuzuna xələl gətirmək, ona təzyiq göstərmək məqsədini güdürlər. Cənubi Qafqazın lokomotiv dövlətinə çevrilən, regionda əsas söz sahibi kimi çıxış edən Azərbaycanın son illər əldə etdiyi davamlı uğurlarını həzm edə bilməyən müəyyən bədxah qüvvələrin hədəfi dəyişməz olaraq qalır: nəyin bahasına olursa-olsun, Azərbaycan hakimiyyətinin həyata keçirdiyi iqtisadi, siyasi və hüquqi islahatların, demokratik inkişaf proseslərinin üzərinə kölgə salmaq, ölkənin beynəlxalq imicinə zərbə vurmaq. Dünyada nüfuzu durmadan artan, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycanın gündən-günə güclənməsi bu qüvvələrin narahatlığına səbəb olur.

Bu gün Azərbaycanda heç bir kənar təsir və diktə altında hərəkət etməyən, xalqın maraqlarını, mənafeyini müdafiə edə bilən hakimiyyət mövcuddur. Məhz bu amil ölkəmizə qarşı yönəlmiş təhdidləri neytrallaşdırır, onu beynəlxalq səviyyədə söz sahibinə çevirir. Ölkə başçısı Azərbaycanın müstəqil dövlət kimi inkişaf strategiyasını belə xarakterizə edib: «Heç bir kənar qüvvə bizim siyasətimizə təsir edə bilməz. Onu da deməliyəm ki, - Azərbaycan ictimaiyyəti də bilir, - bizə qarşı çox çirkin kampaniya aparılır. Bu kampaniya dayanmır, önəmli beynəlxalq tədbirlər ərəfəsində daha da alovlanır, güclənir, əgər belə demək mümkündürsə, ondan sonra bir az səngiyir. Ancaq bu, daimi bir kampaniyadır, səbəbləri də aydındır. İlk növbədə, dünya erməniliyi, erməni lobbisi bizi hədəf seçib, onların himayəsində olan riyakar, rüşvətxor siyasətçilər bu işlərə qoşulub».

Azərbaycan bu gün təkcə Cənubi Qafqazın deyil, Avropanın tolerantlıq, sülh və inkişaf mərkəzlərindən biri kimi tanınır. Ölkəmizdə aparılan çoxmədəniyyətli dialoq müxtəlif dinlərə və mənşəyə malik olan insanlar arasında sülh şəraitində birgə yaşayışın yaxşı nümunəsi kimi istifadə oluna bilər. Ulu öndərin əsasını qoyduğu azərbaycançılıq ideologiyası milli həyatın ahəngdarlığının, konfessiyaların dinc yanaşı yaşamasının, ölkədə yaşayan bütün etnosların qardaşcasına qarşılıqlı əlaqəsi və təsirinin çoxəsrlik ənənəsi, onların ümumi taleyi və gələcək müstəqil Azərbaycanın bütövlüyü, inkişafı və firavanlığı uğrunda birgə mübarizəsinin ümumi tarixi təcrübəsidir.



Son illər mühüm beynəlxalq tədbirlərin keçirilməsi üçün Bakı şəhərinin seçilməsi respublikamızın beynəlxalq nüfuzunu daha da yüksəldir. Dünyanın böyük maraqla izlədiyi möhtəşəm idman yarışı - ilk Avropa Oyunlarının da ölkəmizdə yüksək səviyyədə keçirilməsi Azərbaycanın qüdrətini bir daha nümayiş etdirdi. Aşkar görünür ki, Azərbaycan sülh və əməkdaşlıq paytaxtı kimi tanınmağa başlayır və belə bir müsbət imicin formalaşmasında son illər respublikada keçirilən beynəlxalq toplantıların əhəmiyyətini də xüsusi vurğulamaq lazımdır.

Respublikada müşahidə olunan dinamik iqtisadi tərəqqi ilə paralel şəkildə demokratik-hüquqi islahatların da dönmədən davam etdirilməsi, bu iki təmayülün ümumi strateji inkişaf kursunun prioritet xətti kimi nəzərdən keçirilməsi Azərbaycanı qlobal əhəmiyyətli tədbirlərin mərkəzinə çevirmişdir.

Ölkə rəhbərinin məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycanın qüdrətli dövlətə çevrilməsi yolunda son dərəcə mühüm amil olan ictimai-siyasi sabitlik, vətəndaş sülhü və həmrəyliyi qorunub saxlanılmışdır. Azərbaycanda həyata keçirilən liberal iqtisadi siyasət, makroiqtisadi və maliyyə sabitliyinin qorunmasının təmin edilməsi, dayanıqlı iqtisadi artımın və iqtisadiyyatın modernləşməsinə dəstək verən siyasətin dərinləşdirilməsi, qeyri-neft sektorunun sürətlə inkişaf etdirilməsi əldə edilən müsbət nəticələrdir. Ölkə həyatının bütün sahələrində əldə olunan uğurlar beynəlxalq təşkilatların hesabatlarında, nüfuzlu sosioloji mərkəzlər tərəfindən vaxtaşırı keçirilən rəy sorğularında təqdir olunur və respublikamızın davamlı inkişaf yolunda olduğu xüsusi vurğulanır. Bunu «Rəy» Monitorinq Mərkəzinin bu il iyulun əvvəlində ölkə üzrə keçirdiyi ictimai rəy sorğusunun nəticələri də təsdiqləyir. Cavablardan görünür ki, əgər prezident seçkiləri qarşıdan gələn bazar günü keçirilsəydi, səsvermə məntəqələrinə yollanacaq respondentlərin əksəriyyəti, yəni, 89,7 faizi öz səslərini hazırkı dövlət başçısı İlham Əliyevə verərdi.

Əminliklə deyə bilərik ki, qərəzli iddialara, çirkin kampaniyalara baxmayaraq, respublikamız demokratiyanın şəksiz üstünlüklərini bundan sonra da gerçəkləşdirərək insan hüquqlarına və azadlıqlarına hörmətə əsaslanan hüquqi dövlət quruculuğu yolundan heç vaxt çəkilməyəcəkdir.

## Nazirlər Kabinetinin iclasında 2016-cı ilin dövlət büdcəsi müzakirə edilib

Sentyabrın 1-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadənin sədrliyi ilə Nazirlər Kabinetində 2016-cı il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri, sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, həmçinin Azərbaycan Respublikasının 2016-cı il və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri müzakirə edilib.

İclası giriş sözü ilə açan Baş nazir Artur Rasizadə bildirib ki, gələn ilin dövlət büdcəsi layihəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkədə aparılan iqtisadi siyasətin nəticəsində əldə olunmuş uğurlar və müsbət inkişaf templəri, həmçinin son dövrlər dünyada gedən qlobal maliyyə və iqtisadi proseslərdə müşahidə olunan dəyişkənliklər nəzərə alınmaqla tərtib edilib. Layihənin hazırlanmasında dövlət büdcəsinin sosialyönümlü olması əsas götürülərək, respublika əhalisinin maddi rifahının daim yaxşılaşdırılması, ölkəmizin müdafiə qüdrətinin və təhlükəsizliyinin təmin edilməsi, qeyri-neft sektorunun inkişafına dəstək kimi mühüm amillərə xüsusi diqqət yetirilib.

Sonra Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov və Azərbaycan Respublikasının iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev gündəlikdə duran məsələlərə dair məruzə ilə çıxış ediblər.

Büdcə layihəsi ətrafında aparılan geniş müzakirələrin yekununda «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, büdcə zərfinə daxil olan sənədlər toplusunun Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi barədə qərar qəbul edilib.

## Dövlət xidmətlərinin göstərilməsində şəffaflığın artırılması, yaşayış yeri üzrə qeydiyyat və lisenziyalaşdırma prosedurlarının elektronlaşdırılması sahəsində bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin

## Fərmanı

Daxil olan məlumatların təhlili göstərir ki, bəzi dövlət qurumları müasir texnoloji yeniliklərdən istifadə etmədən, əhaliyə xidmətlərin göstərilməsi qaydalarını təkmilləşdirmədən, şəffaflığı təmin etmədən fəaliyyət göstərir.

Belə ki, mənzillərdə, fərdi yaşayış evlərində və digər yaşayış sahələrində qeydiyyatda olan şəxslərin uçotunu həyata keçirən mənzil-kommunal istismar sahələrində informasiyanın toplanması, sistemləşdirilməsi, saxlanması və arxivləşdirilməsi kağız daşıyıcılar üzərində aparılır, məlumatların yenilənməsi qeyri-mütəmadi və sistemsiz şəkildə həyata keçirilir, elektron vasitələrdən istifadə edilmir.

Elektron xidmətlər müasir dövrdə ictimai həyatın bütün sahələrinin, eləcə də iqtisadiyyatın və sahibkarlığın inkişafında mühüm rol oynayır. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərə xüsusi razılıq (lisenziya), sertifikat və digər sənədlərin verilməsi prosedurlarının elektronlaşdırılması sahibkarlığın inkişaf etdirilməsi sahəsində görülən işlərin səmərəliliyini daha da artıracaqdır.

Dövlət xidmətlərinin göstərilməsində yeni standartların tətbiq edilməsini, innovasiyalardan və müasir texnologiyalardan istifadənin genişləndirilməsini, habelə şəffaflığın artırılmasını təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər haqqında arayışın verilməsində aşağıdakı qaydalara riayət olunması təmin edilsin:

1.1. arayışın «Giriş-çıxış və qeydiyyat» idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin (İAMAS) və digər informasiya sistemlərinin məlumatlarından istifadə edilməklə, elektron qaydada tərtib edilməsi;

1.2. arayışın vətəndaşların şəxsiyyət vəsiqəsi əsasında və əlavə heç bir sənəd tələb edilmədən hazırlanması;

1.3. arayışın vətəndaşın müraciət etdiyi gün təxirəsalınmadan verilməsi.

2. Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan xüsusi razılıq (lisenziya), sertifikat, şəhadətnamə və digər sənədlərin elektron qaydada verilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə «Elektron lisenziya» portalının yaradılmasını təmin etsin.

3. «Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, №9, maddə 858; 2013, №2, maddə 109, №3, maddə 254, №4, maddə 377; 2014, №2, maddə 117, №7, maddə 486, №9, maddə 1044; 2015, №6, maddə 708) aşağıdakı dəyişikliklər edilsin:

3.1. aşağıdakı məzmunda 5.6-1-ci və 5.11-1-ci bəndlər əlavə edilsin:

«5.6-1. yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər haqqında arayışın verilməsi;

5.11-1. şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlı sorğuların qəbulu və cavablandırılması;»;

3.2. 5.16-cı bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 5.17-ci bənd əlavə edilsin:

«5.17. taksi minik avtomobilləri ilə sərnişin daşınmasına xüsusi razılıq (lisenziya) verilməsi, taksi minik avtomobilləri ilə sərnişin daşınmasını həyata keçirən sadələşdirilmiş vergi ödəyicilərinə məxsus nəqliyyat vasitəsinə «Fərqlənmə nişanı»nın verilməsi.»;

3.3. 6-cı hissədə «Vergilər Nazirliyinə,» sözlərindən sonra «Nəqliyyat Nazirliyinə,» sözləri əlavə edilsin;

3.4. həmin Fərmanla təsdiq edilmiş «Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Əsasnaməsi»ndə aşağıdakı dəyişikliklər edilsin:

3.4.1. 3.1.7-1-ci yarımbəndə «həyata keçirmək» sözlərindən sonra «,səyyar xidmətdən daxil olan vəsaitin işçilərin sosial müdafiəsinin gücləndirilməsinə və maddi təminatının yaxşılaşdırılmasına yönəldilən hissəsini müəyyən etmək» sözləri əlavə edilsin;

3.4.2. aşağıdakı məzmunda 3.1.7-3-cü yarımbənd əlavə edilsin:

«3.1.7-3. mərkəzlərdə xüsusi notariusların fəaliyyətinin təşkili ilə bağlı müqavilələr bağlamaq və xüsusi notariuslar tərəfindən tutulan haqların Dövlət Agentliyinin xüsusi hesabına köçürülən hissəsini müəyyən etmək;»;

3.4.3. 3.1.10.3-cü abzasda «göstərilməsi» sözündən sonra «, habelə dövlət orqanlarının informasiya sistemlərinin təşkili və fəaliyyəti» sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi bir ay müddətində:

4.1. yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər haqqında arayışın formasını müəyyən etsin;

4.2. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş xidmətin «ASAN xidmət» mərkəzlərində və Nazirliyin qeydiyyat və şəxsiyyət vəsiqəsi qurumlarında həyata keçirilməsini təmin etsin.

5. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlı sorğulara baxılması zamanı yaşayış yeri üzrə qeydiyyata dair məlumatların və digər zəruri informasiyanın elektron qaydada mübadiləsini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə birlikdə təmin etsin.

6. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi taksi minik avtomobilləri ilə sərnişin daşınmasına xüsusi razılıq (lisenziya) verilməsi və taksi minik avtomobillərinə «Fərqlənmə nişanı»nın verilməsi xidmətlərinin «ASAN xidmət» mərkəzlərində həyata keçirilməsini təmin etsin.

7. Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi taksi minik avtomobillərinin xarici tərtibatına və texniki göstəricilərinə dair tələblərin sadələşdirilməsi üçün müvafiq tədbirlər görsün.

8. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi:

8.1. dövlət xidmətlərinin həyata keçirilməsi üçün zəruri olan informasiya sistemləri və ehtiyatlarının saxlanmasını və məlumatların şəxsin fərdi identifikasiya nömrəsi əsasında mübadiləsini həyata keçirən müvafiq infrastrukturun yaradılması ilə bağlı tədbirlər görsün;

8.2. dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi qaydaları, elektron xidmətlərin təşkili və göstərilməsi üçün zəruri informasiya mənbələrinin müəyyənləşdirilməsi ilə bağlı təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

9. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası taksi minik avtomobilləri ilə sərnişin daşınmasına xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi məqsədi ilə normativ hüquqi aktlarda dəyişikliklər edilməsi barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

10. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

10.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

10.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının üç ay müddətində bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

10.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

10.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

11. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 avqust 2015-ci il.*

2 | «E-hökumət» üzərindən daha bir xidmət istifadəyə veriləcək

3 | Azərbaycanın vergi sistemində tətbiq edilən informasiya texnologiyaları müasir beynəlxalq standartlara əsaslanır

4 | Nəzarət tədbirlərinin nəticələrinin açıqlanması şəffaflığın artırılmasına xidmət edir

5 | Azərbaycanın investisiya reytinqini «sabit» saxlanılıb

# Azərbaycan dövləti manatı sabit saxlamağa çalışır

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov ANS-ə müsahibə verib. Müsahibədən ölkənin iqtisadi həyatı üçün aktual olan bəzi məsələləri diqqətinizə təqdim edirik.

İqtisadi siyasət, valyuta mübadiləsi, enerji daşıyıcılarının qiyməti, ondan irəli gələrək qlobal dünya iqtisadiyyatının vəziyyəti, Çin kimi dünya iqtisadiyyatının böyük bir qismini təşkil edən nəhəng bir ölkədə baş verən iqtisadi, eləcə də maliyyə prosesləri, devalvasiya, Amerika Birləşmiş Ştatlarında qalxma və enmələr, Avropa Birliyindəki proseslər, Yunanıstanda baş verən böhranlar, bir vaxtlar sabitlik adası kimi dəyərləndirilən Şimali Afrikadakı çaxnaşmalar, əhalinin öz yurd-yuvasını tərk edib Avropaya miqrasiya etməsi, bunun qarşısını almaq cəhdləri, bundan irəli gələn proseslər - bütün bunlar bəşəriyyətdə yaşayan hər bir insana təsir edir, o cümlədən Azərbaycana da təsirsiz ötüşməyə bilmir.

Biz nə qədər çalışsaq ki, Azərbaycanın iqtisadiyyatını, siyasətini, sosial həyatını, maliyyə sabitliyini və digər məsələləri beynəlxalq aləmdən tam azad şəkildə inkişaf etdirək və onlardan asılılığı azaldaq, istər-istəməz qlobal dünyanın bir tərkib hissəsi kimi Azərbaycan da bu proseslərdən yan keçə bilmir. Ona görə də, əlbəttə, valyuta ətrafında son zamanlar yaranmış ajiotajı da biz anlayırıq. Vətəndaşın öz maliyyə vəsaitlərini, öz pul yatırımlarını və yaxud da pul vəsaitlərini qorumaq cəhdlərini də düzgün anlayırıq və dəyərləndiririk. Dövlətin vəzifəsi ondan ibarətdir ki, bir tərəfdən hər bir vətəndaşının mövcud vəsaitlərinin qorunmasına yardımçı olsun, onların düzgün yerləşdirilməsi, düzgün idarəsi, devalvasiya və digər proseslərdən asılılığın aşağı salınması ilə məşğul olsun, o biri tərəfdən də özünün davamlı inkişafını təmin eləsin, özünün maliyyə, iqtisadi, sosial həyatını davamlı və ayrı-ayrı proseslərdən asılı vəziyyətdən xilas eləsin. Odur ki, dövlət olaraq biz hər bir vətəndaşdan az düşünmürük. Prezident Administrasiyası hər bir vətədaşın narahatlığını paylaşır, bölüşür. Cənab prezidentin siyasətinin təməlində Azərbaycan vətəndaşı dayanır, onun maraqları dayanır və Prezidentin bütün çıxışlarında qırmızı xətlə bir cümlə keçir ki, mən istəyirəm Azərbaycanda heç bir problem olmasın, hər bir vətəndaş layiqli həyat tərzi ilə təmin olunsun. Odur ki, bu tipli proseslər elə-belə, kortəbii baş vermir.

Bilirsiniz ki, fevral ayında baş verən devalvasiyadan vətəndaşlarımız dövlətdən, Mərkəzi Bankdan nə qədər narazı oldu ki, dövlət bunu qarşısını ala bilərdi. Amma digər bir tərəfdən də dövlət həm də özünü qorumalıdır. Sadəcə olaraq bizi əhatə edən ölkələrə nəzər yetirsək görərik ki, Azərbaycandan qat-qat zəngin olan Rusiya, Qazaxıstan və Belarusda devalvasiya hansı dərəcədə getdi? Mən hələ Ermənistan kimi cırtdan dövlətləri demirəm. Nələr baş verdi, biz bunun şahidi olduq. Bizdə cəmi 30-35 faiz arasında devalvasiya getdi. Hazırda Azərbaycan dövləti maksimum dərəcədə çalışır ki, vətəndaşların, eləcə də Mərkəzi Bankın və onun strukturunun da maraqları təmin olunsun. Bütövlükdə, Azərbaycan dövləti hər bir kəsin dövlətidir və bu dövlətin maraqları qorunsun. Hesab edərəm ki, ajiotaja əsas yoxdur. Nəinki bunu seçki ilə bağlamaq lazımdır, ümumiyyətlə Azərbaycan dövləti çalışır ki, manat sabit qalsın. Manat bizim milli simvollardan, dövlətin vacib atributlarından biridir. Onun dəyərdən düşməsi bizim dövlətin də dəyərdən düşməsidir. Ona görə biz çalışırıq ki, sabit qalsın və inşallah, sabit də qalacaq!

# Yeni dərs ili qarşısında...

Gənc nəslin vergilər haqqında bilik və anlayışlarının artırılması, onlarda yüksək vergi mədəniyyətinin formalaşdırılması məqsədilə Vergilər Nazirliyi ilə Təhsil Nazirliyi arasında səmərəli əməkdaşlıq çərçivəsində silsilə layihələr həyata keçirilir. Həmin layihələrdən biri də ümumtəhsil məktəblərində və orta ixtisas peşə liseylərində vergilərə dair 56 ixtisaslaşdırılmış metodiki kabinet və tədris otağının təşkil edilməsidir. Yeni dərs ili ərəfəsində Vergilər Nazirliyinin Tədris Mərkəzində metodiki kabinetlərə və vergi tədris otaqlarına məsul olan 49 metodist müəllimin iştirakı ilə seminar keçirilmişdir. Vergilər nazirinin müşaviri Ələkbər Məmmədov gənc nəslə vergi sahəsində biliklərin aşılanması istiqamətində görülən işlər barədə məlumat vermiş, bu istiqamətdə aparılan işlərin davamlı olduğunu qeyd etmişdir.

Seminarda Vergilər Nazirliyinin mütəxəssisləri tərəfindən vergi ödəyicilərinə təqdim olunan xidmətlər, metodiki kabinetlərdə şagird və tələbələrə keçirilməsi tövsiyə olunan mövzular və s. barədə təqdimatlar edilmiş, iştirakçıların sualları cavablandırılmışdır.

Seminar başa çatdıqdan sonra iştirakçılara sertifikatlar təqdim edilmişdir.

# Təhlükəsiz iş aylığı

## Dövlət nəzarətinin gücləndirilməsi çərçivəsində aparılmış işlər müsbət nəticələr verir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti (DƏMX) tərəfindən sentyabr ayı ölkədə «Təhlükəsiz iş aylığı» elan olunub. Məqsəd iş yerlərində sağlam və təhlükəsiz əmək şəraitinin təmin olunması, istehsalatda baş verə biləcək bədbəxt hadisələrin qarşısının alınması üçün önləyici tədbirlərin görülməsi, bu sahədə mövcud nöqsanların aradan qaldırılması, işəgötürənlərin və işçilərin bu məsələlərə diqqətinin artırılmasıdır.

Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi Fuad Əlizadə bildirib ki, həyata keçirilən dövlət nəzarətinin nəticələrinə əsasən, əmək qanunvericiliyinin, o cümlədən əməyin mühafizəsi normalarının daha çox pozulduğu iş sahələrinin əhatə dairəsi genişdir: «Tədbirlər planına uyğun olaraq gələn ay sosial partnyorların və əlaqədar dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə belə müəssisələrdə və istehsalat qəzası riski yüksək olan sahələrdə əmək qanunvericiliyinə əməl olunması vəziyyəti yerində araşdırılacaq. İş yerlərində əməyin mühafizəsi və ümumən əmək münasibətləri sahəsində aşkar edilən nöqsanların, həmçinin işçilərin əmək müqaviləsi bağlanmadan və elektron informasiya sistemində qeydiyyatdan keçirilmədən, qeyri-leqal formada əmək fəaliyyətinə cəlb olunması hallarının aradan qaldırılması üçün müvafiq tədbirlər görüləcək».

Xidmət rəisi «Təhlükəsiz iş aylığı» çərçivəsində maarifləndirmə tədbirlərinə də xüsusi önəm veriləcəyini qeyd edib: «Bakıda və respublikanın regionlarındakı avtomobillərə texniki xidmət və avtoyuma məntəqələrinin işçilərinin, habelə işəgötürənlərin iştirakı ilə maarifləndirmə xarakterli seminar-müşavirələrin, dəyirmi masaların, görüşlərin keçirilməsi də nəzərə tutulur. Bu tədbirlərdə DƏMX-in və onun regional bölmələrinin əməkdaşları tərəfindən əmək qanunvericiliyinə, o cümlədən əməyin mühafizəsinə dair geniş məlumatlandırma işləri aparılacaq, ortaya çıxan suallar cavablandırılacaq».

Bildirək ki, ölkəmizdə ilk dəfə ötən ilin sentyabrında «Təhlükəsiz iş həftəsi», bu ilin yanvar-fevral aylarında «Təhlükəsiz iş ongünlüyü», aprel ayında isə «Təhlükəsiz iş aylığı» keçirilmişdi. Xidmət rəisi bildirib ki, həmin tədbirlər çərçivəsində işəgötürənlərin və işçilərin müvafiq mövzu ilə bağlı dolğun şəkildə məlumatlandırılması, habelə istehsalat qəzası riski yüksək olan iş yerlərində əməyin mühafizəsi vəziyyətinin araşdırılaraq, aşkar olunan nöqsanların aradan qaldırılması üçün məqsədyönlü işlər görülüb: «Ümumiyyətlə, həm dövlət nəzarətinin gücləndirilməsi, həm də görülən tədbirlər müsbət nəticələrini verir. Məsələn, bu ilin birinci yarısında əmək qanunvericiliyinin pozulması faktlarının sayı 2014-cü ilin yanvar-iyun ayları ilə müqayisədə 12,8 faiz, həmçinin istehsalatla əlaqəli bədbəxt hadisələrin sayı 42,1 faiz, bu hadisələr nəticəsində dünyasını dəyişənlərin sayı 2 dəfə, xəsarət alanların sayı isə 48,8 faiz azalıb. Əminik ki, növbəti «Təhlükəsiz iş aylığı» da müsbət göstəricilərin artmasında mühüm rol oyanayacaq».

**AYTƏN**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fiziki şəxslər tərəfindən 2015-ci ilin yanvar-iyul aylarında **32,1 milyard manatlıq** ümumi daxili məhsul istehsal edilmişdir.
- Sənayenin qeyri-neft sahələrində istehsalın həcmi əvvəlki ilin yanvar-iyul aylarının səviyyəsini **14,7%** üstələmişdir.
- Yanvar-iyun aylarında qeyri-neft məhsullarının ixracı 2014-cü ilin eyni dövrü ilə müqayisədə **16%** artaraq **870,6 milyon dollar** təşkil etmişdir.
- 2015-ci ilin yanvar-iyun aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı **457,2 manat** olmuşdur.
- Ötən ilin yanvar-iyul ayları ilə müqayisədə, kənd təsərrüfatının ümumi məhsulu **8,9%** artmışdır.

# Çağrı Mərkəzi vasitəsilə göstərilən e-xidmətlər

*Vergilər Nazirliyinin internet vasitəsilə göstərdiyi 60 elektron xidmətdən yeddisi «Çağrı Mərkəzi» tərəfindən həyata keçirilir. Bu xidmətlərin yaratdığı imkanlardan daha fəal və faydalı istifadə edə bilməniz məqsədilə ayrı-ayrı xidmətlərlə bağlı bəzi mühüm məqamları diqqətinizə çatdırırıq.*

**İkitərəfli SMS xidməti**

Çağrı Mərkəzində SMS vasitəsilə daxil olmuş müraciətlərin SMS ilə cavablandırılması xidməti üzrə məlumatlar vergi ödəyicilərinə iki formada çatdırılır: abunə olmaq və sorğu vermək. Abunə olan vergi ödəyicilərinə vergi öhdəlikləri və vergilər barədə məlumatlar göndərilir. Sorğu üçün isə «İkitərəfli SMS xidməti»nin istifadəçiləri qeydiyyatdan keçmiş telefon nömrəsindən müvafiq məlumata uyğun rəqəmləri (məsələn, 1 - borc barədə məlumat; 2 - bəyannamə barədə məlumat və s.) yazıb 8195 nömrəsinə göndərirlər. Bundan sonra sorğu edən şəxsə vergi orqanı tərəfindən gün ərzində müvafiq məlumatlar çatdırılır. Abunə olan vergi ödəyicilərinə məlumatlar əməliyyatın həyata keçirildiyi gündən sonrakı gün, sorğu zamanı isə sorğu edilən gün ərzində göndərilir.




Xidmətin istifadəçilərinin Vergilər Nazirliyi tərəfindən verilmiş istifadəçi kodu və şifrəsi olmalıdır. Bunlardan istifadə etməklə mobil telefondan «*195*istifadəçi kodu*şifrə#yes» yığılır. Bu halda istifadəçilər yalnız sorğu göndərməklə məlumatlar əldə edə biləcəklər. Məsələn, 1 yazıb 8195 nömrəsinə SMS göndərdikdə borc barədə, 2 yazıb 8195 nömrəsinə SMS göndərdikdə təqdim edilməmiş bayannamə barədə, 3 yazıb 8195 nömrəsinə SMS göndərdikdə fəaliyyətin aktiv və ya passiv olması barədə məlumat əldə edə bilərlər.

Xidmətə abunə olmaq üçün mobil telefonda «start» yazıb 8195 nömrəsinə SMS göndərmək lazımdır. Abunə olmuş vergi ödəyicisinə aşağıda göstərilən hallarda müvafiq məzmunlu SMS göndərilir:

- ♦ vergi ödəyicisinin vergilər üzrə büdcəyə borcu yarandıqda;
- ♦ vergi ödəyicisinin təqdim edilməli bəyannaməsi olduqda;
- ♦ vergi ödəyicisinin təqdim etdiyi bəyannamə üzrə vergi hesablandıqda;
- ♦ vergi ödəyicisinin təqdim etdiyi bəyannamədə uyğunsuzluq yarandıqda;
- ♦ vergi ödəyicisi fəaliyyətini dayandırdıqda;
- ♦ vergi ödəyicisinin fəaliyyəti aktivləşdikdə;
- ♦ vergi ödəyicisi cari vergi ödəmələri barədə arayış təqdim etdikdə;
- ♦ vergi ödəyicisinə cari vergi ödəmələri hesablandıqda;
- ♦ vergi ödəyicisi ləğv bəyannaməsi göndərməli olduqda;
- ♦ vergi ödəyicisi tərəfindən büdcəyə ödəniş edildikdə.

Bir nömrə iki və daha çox vergi ödəyicisi üzrə qeydiyyatdan keçirildikdə müvafiq VÖEN və start sözü yazılıb 8195 nömrəsinə SMS göndərilməlidir.

Xidmət ödənişlidir və aylıq abunə haqqı 1,18 manat, hər bir sorğunun dəyəri isə 10 qəpikdir.

Onu da qeyd edək ki, telefon nömrəsi qeydiyyatdan keçmədikdə, sorğu düzgün göndərilmədikdə, göndərilmiş sorğuların mətni düzgün formatda olmadıqda və ya balansda kifayət qədər məbləğ olmadıqda xidmət göstərilmir və bununla bağlı xidmətin istifadəçilərinə müvafiq məzmunlu bildiriş xarakterli mesajlar göndərilir. Abunə olmuş vergi ödəyicisi üzrə abunə haqqının tutulması üçün balansda kifayət qədər məbləğ olmadığı halda da SMS-lərin göndərilməsi dayandırılır, istifadəçiyə balansını artırması barədə mesaj göndərilir və balansdan məbləğin tutulması üçün 30 gün müddətində cəhdlər edilir. 30 gün ərzində edilən cəhdlərin hər hansı birinin nəticəsində balansdan abunə haqqı tutulduqda abunə müddəti 30 gün müddətinə artırılır. 30 gün keçdikdən sonra edilən cəhdlər nəticəsində balansdan məbləğ tutmaq mümkün olmadıqda 30-cu gün abunə olan şəxsə abunənin bloklaşdırılması barədə mesaj göndərilir.

Vergi ödəyiciləri abunəliyi passivləşdirmək üçün «stop» yazaraq 8195 nömrəsinə SMS göndərməlidirlər. Hər hansı nömrənin SMS qeydiyyatından çıxarılması üçün isə vergi ödəyicisi tərəfindən Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət idarəsinə yazılı müraciət edilməlidir.

**A.NƏBİYEVA**

# «E-hökumət» üzərindən daha bir xidmət istifadəyə veriləcək

Ünvanlı dövlət sosial yardımının alınması üçün elektron formada müraciət göndərilməsinə imkan verən proqram təminatı hazırdır və artıq sınaq işlərinə başlanılıb.

Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzində (MHM) Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin və Mərkəzi Bankın Mərkəzləşdirilmiş Kredit Reyestri Xidmətinin nümayəndələri ilə görüş keçirilib. Görüşdə ölkə başçısının «Ünvanlı dövlət sosial yardım sisteminin təkmilləşdirilməsi haqqında» 23 fevral 2015-ci il tarixli fərmanı üzrə Vahid Elektron Müraciət və Təyinat Alt Sisteminin (VEMTAS) fəaliyyətinin «Elektron hökumət» portalı üzərindən təşkili ilə əlaqədar MKR informasiya sisteminin portala qoşulması, müvafiq servisin hazırlanması məsələləri müzakirə edilmişdir.

Vətəndaşlara ünvanlı dövlət sosial yardımın alınması üçün fərdi kommunikasiya vasitələrindən istifadə etməklə elektron formada müraciət etmək imkanı yaratmaq məqsədilə «Elektron hökumət» portalına müvafiq informasiya-proqram resursları əlavə edilməli, yardım üçün müraciət etmiş şəxslər və onların ailə üzvləri üzrə tələb olunan arayış və məlumatların əldə olunması məqsədilə ƏƏSMN «Elektron hökumət» portalı vasitəsilə müvafiq dövlət qurumlarının informasiya resurslarına çıxışını təmin etməlidir. Ümumilikdə 20 dövlət qurumunun mülkiyyətində olan informasiya sistemlərindən müxtəlif servislərin hazırlanaraq portala təqdim edilməsi nəzərdə tutulmuş, bir sıra dövlət qurumları tərəfindən informasiya sistemlərinin və müvafiq servislərin portala inteqrasiyası başa çatdırılmışdır.

VEMTAS istifadəyə verildikdən sonra ehtiyacı olan vətəndaş ünvanlı dövlət sosial yardımı almaq üçün internet vasitəsilə elektron qaydada müraciət edə biləcək. Müraciət qəbul edildikdən sonra proqram təminatı tərəfindən təyin olunmuş qrafik əsasında müraciət edən ailənin maddi-məişət şəraitinin müayinəsi aparılacaq. Müayinə - təyin olunmuş müddət ərzində və müvafiq proqram təminatı ilə təchiz edilmiş xüsusi kompüter avadanlıqları ilə həyata keçiriləcək. Nəticələr real vaxt rejimində VEMTAS-a ötürüləcək. Buna paralel olaraq müraciətə baxılması üçün müvafiq məlumatların «Elektron hökumət» portalı üzərindən aidiyyəti dövlət qurumlarının informasiya resurslarından real vaxt rejimində əldə edilməsi təmin olunacaq. Toplanılmış bütün məlumatlar ümumiləşdirildikdən və təhlil edildikdən sonra VEMTAS tərəfindən müraciət edən şəxsin ailəsinə ünvanlı dövlət sosial yardımının təyin olunub-olunmaması barədə qərar qəbul ediləcək. Vətəndaşın ailəsinə ünvanlı dövlət sosial yardımının təyin olunub-olunmaması barədə məlumat onun elektron ünvanına, yaxud mesaj formasında mobil telefon nömrəsinə göndəriləcək. Ünvanlı dövlət sosial yardımı təyin olunduğu halda yardımın ödənilməsi məqsədilə həmin şəxsə bank hesabının açılması üçün sistem tərəfindən müvafiq banka sifarişin göndərilməsi avtomatik həyata keçiriləcək. Bankın ünvanı və bank kartının nə vaxt götürülməli olduğu barədə məlumatlar ailəni təmsil edən şəxsin elektron ünvanına və ya mesaj formasında mobil telefonuna göndəriləcək.

Qeyd edilmişdir ki, ünvanlı dövlət sosial yardımı sisteminin avtomatlaşdırılması innovativ texnologiyaların tətbiqi yolu ilə aztəminatlı ailələrin bu yardım sistemi üzrə çevik, rahat və şəffaf xidmətlərlə təmin olunmasına şərait yaradacaq.

**AYTƏN**

# Azərbaycanın vergi sistemində tətbiq edilən informasiya texnologiyaları müasir beynəlxalq standartlara əsaslanır



*Azərbaycanın vergi xidməti son illər informasiya texnologiyalarının tətbiqi istiqamətində əsaslı modernizasiya prosesindən keçmişdir. Hazırda Vergilər Nazirliyi qarşısında informasiya texnologiyalarının tətbiqinin dərinləşdirilməsi, bu sahədə idarəetmə sisteminin gücləndirilməsi, beynəlxalq təcrübəyə əsaslanan, müasir tələblərə cavab verən yeni uzunmüddətli strategiyanın hazırlanması kimi mühüm vəzifələr durur. Nazirliyin İnformasiya texnologiyaları və proqram təminatı şöbəsinin rəisi Eyyub İbrahimovla söhbətimizin mövzusu da bu sahədə görülən işlərə və vəzifələrə həsr olunub.*

***- Eyyub müəllim, Vergilər Nazirliyinin informasiya texnologiyalarının tətbiqi sahəsində əldə etdiyi nailiyyətlərdən bəhs edərkən ilk növbədə hansı məqamları vurğulamaq lazımdır?***

- Vergilər Nazirliyi ölkəmizdə elektron kargüzarlığı və müasir texnologiyaları tətbiq edən ilk mərkəzi icra hakimiyyəti orqanıdır. Nazirliyin həyata keçirdiyi layihələr digər dövlət və özəl qurumlar üçün əsl nümunəyə çevrilmişdir. Müasir informasiya texnologiyalarının istifadəsinin nəticəsi olaraq Vergilər Nazirliyinin Aparatında və yerli qurumlarda işin keyfiyyəti artırılmış, vergi xidməti avtomatlaşdırılmış, vergi ödəyicilərinin vergi orqanlarına gəlmədən bütün xidmətlərdən istifadə imkanı əhəmiyyətli dərəcədə genişləndirilmişdir.

***- Müasir vergi inzibatçılığının inkişaf etdirilməsi və şəffaflığın təmin edilməsində informasiya texnologiyalarının tətbiqi hansı real nəticələr verir?***

- Azərbaycan Respublikası Prezidentinin 28 iyul 2007-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş «Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya»da əks olunan tapşırıqlar və göstərişlərin Vergilər Nazirliyi tərəfindən vaxtında və tam şəkildə icra edilməsi sayəsində vergi xidmətinin fəaliyyətində şəffaflıq təmin edilmişdir. İnformasiya texnologiyalarının yaratdığı imkanların tətbiqi vergi inzibatçılığının yeni mərhələyə qədəm qoyması ilə nəticələnmişdir. Vergi ödəyiciləri, vətəndaşlar və digər şəxslər subyektiv münasibətdən, neqativ hallardan tamamilə azad olmuş, vergi orqanları ilə vergi ödəyiciləri arasında qarşılıqlı inam və işgüzar münasibətlər yaranmışdır. Əminliklə qeyd etmək olar ki, Azərbaycan Respublikası Vergilər Nazirliyi vergi ödəyicilərinə, vətəndaşlara, dövlət orqanlarına və digər qurumlara müasir xidmət təklif edən qurumdur. Vergi qanunvericiliyində nəzərdə tutulan bütün vergi hərəkətləri, müraciətlərə baxılması və münasibət bildirilməsi internet vasitəsi ilə həyata keçirilir.

***- Hazırda dünyada vergi sahəsində elektron xidmətlərin sadələşdirilməsi, vətəndaşların istifadəsi üçün mümkün qədər asanlaşdırılması istiqamətində işlər aparılır. Ölkəmizdə vergi ödəyicilərinin işinin asanlaşdırılması istiqamətində hansı işlər görülür?***

- Vergilər Nazirliyi təsis olunduğu tarixdən bu günədək bütün sahələr üzrə ardıcıl təkmilləşdirmə işləri aparır. Hazırda vergi ödəyiciləri bütün vergi hərəkətlərini: bəyannamələrin təqdim edilməsini, verginin ödənilməsini və digər zəruri prosessual hərəkətləri onlayn rejimdə aparmaq imkanına malikdir. Bununla yanaşı, Vergilər Nazirliyinin «Çağrı mərkəzi» uğurla fəaliyyət göstərir və bu xidmət vətəndaşların böyük rəğbətini qazanmışdır. Bütün bu işlərin nəticəsidir ki, elektron xidmətlərin çeşidinə və keyfiyyətinə görə Vergilər Nazirliyi dövlət qurumları arasında Cənubi Qafqazda lider mövqeyinə çıxmışdır. Bununla belə, nazirlik əldə olunan nailiyyətlərlə kifayətlənmir, təkmilləşdirmə işləri aparır, xidmətin daha yüksək olması istiqamətində tədbirlər görür. Yaxın zamanlarda vergi ödəyiciləri daha təkmil elektron xidmətlərdən yararlanacaqlar. İndi istifadə olunan «ASAN imza» və «E-imza» vahid bir qurğuda birləşdiriləcək və eyni sertifikatda həm mobil, həm də kart vasitəsi ilə elektron «Asan İD» kart imzanın tətbiqinə başlanılacaqdır. Onu da qeyd edim ki, kameral yoxlamaların da tam avtomatlaşdırılması prosesi başa çatmaq üzrədir. Gələcəkdə vergi ödəyicilərinə və vətəndaşlar üçün elektron xidmətlərin keyfiyyətinin yüksəldilməsi üçün yeni layihələr həyata keçirəcəyik. Bu istiqamətdə gördüyümüz işlər davamlı xarakter daşıyır.

***- Vergi nəzarəti sistemində informasiya texnologiyalarının tətbiqi ilə bağlı hansı addımlar atılmışdır?***

- Vergilər Nazirliyində tətbiq edilən AVİS vergi inzibatçılığının tam şəkildə elektronlaşdırılmasına, operativ informasiya mübadiləsinin təmin olunmasına, vergi ödəyicilərinə geniş çeşiddə elektron xidmətin göstərilməsinə, vergi bəyannamələrinin qəbulu və emalı prosesinin sadələşdirilməsinə imkan yaratmışdır. Hazırda əlavə dəyər vergisi (ƏDV) ödəyicilərinin demək olar ki, hamısı bəyannaməni elektron formada təqdim edirlər.

2008-ci ilin əvvəlindən ƏDV-nin vahid depozit hesabının tətbiqinə və müvafiq proqram təminatının istifadəsinə başlanılmışdır. Bununla da ƏDV-nin ödənilməsindən yayınma və digər qeyri-qanuni hallara qarşı yeni səmərəli sxemin tətbiq edilməsinə nail olunmuşdur. Vergi ödəyicilərinə təqdim edilən müasir elektron xidmətlər sırasına elektron vergi-hesab fakturalarının tətbiqi də əlavə olunmuşdur. Elektron vergi hesab-fakturaları vergi xidməti orqanları ilə vergi ödəyiciləri arasında əlaqələri elektron vasitələrdən istifadə etməklə təmin edir, vergi ödəyicilərinin işini asanlaşdırır. Hazırda vergi ödəyiciləri və digər şəxslər internetlə göndərdikləri sənədin vergi orqanı daxilində hərəkətini real vaxt rejimində izləyə və icraçı ilə birbaşa telefon əlaqəsi yarada bilirlər. «Onlayn kargüzarlıq» sistemi vasitəsilə vergi orqanına göndərilən bütün müraciətlər rəsmi sənəd statusu daşıyır. Elektron vergi inzibatçılığı indi elə müasir formada qurulub ki, vergi ödəyicilərinin bütün əməliyyatları, vergi ilə əlaqədar öhdəlikləri real vaxt rejimində nəzarətdədir. Bu isə vergidən yayınma hallarının vaxtında aşkar edilməsinə, dövlət büdcəsinə ödəmələrin vaxtında təmin olunmasına yardımçı olur.

***- Elektron audit sisteminin tətbiqinin real nəticələri barədə nə deyə bilərsiniz?***

- Azərbayan Respublikası Vergilər Nazirliyi MDB məkanında elektron auditi tətbiq edən ilk vergi xidmətidir. Audit yoxlamaları, onların vergi müfəttişi tərəfindən ötəri aparılması və subyektiv amillərə qarşı vergi ödəyicilərində bəzən haqlı, bəzən haqsız narazılıqlar olur. Bu halların aradan qaldırılması, auditin vergi ödəyicisi ilə təmasda olmadan, elektron qaydada həyata keçirilməsi vergi ödəyicilərinin əksər hissəsi tərəfindən müsbət qarşılanmış, bu sahədə şikayətlərin və narazılıqların sayı əhəmiyyətli dərəcədə azalmışdır. Elektron audit zamanı aşkar edilmiş nöqsanlar və pozuntular bir çox hallarda vergi ödəyiciləri tərəfindən qəbul edilərək könüllü şəkildə aradan qaldırılmışdır. Vergi ödəyicisi üçün ən həssas məsələ olan auditin subyektiv amili nisbətən azalmışdır.

***- Vergi inzibatçılığında informasiya texnologiyalarının tətbiqi hansı beynəlxalq standartları ehtiva edir?***

- Vergilər Nazirliyi tərəfindən elektron inzibatçılığın tətbiqi, vergi xidmətlərinin tam elektronlaşdırılması, digər qurumlar tərəfindən vergi informasiya sisteminə inteqrasiya və müəyyən məlumatların əldə edilməsi imkanının yaradılması vergi ödəyicilərinə aid fərdi məlumatların qorunmasını aktuallaşdırır. Bazar iqtisadiyyatında fərdi məlumatların bəzi şəxslər tərəfindən şəxsi məqsədlər üçün istifadə edilməsi ciddi maddi itkilərə səbəb olmaqla yanaşı, sahibkarlıq subyektinin işgüzar nüfuzuna və imicinə sarsıdıcı zərbə vurur. Bu səbəbdən də vergi ödəyicilərinə aid məlumatların mühafizəsi, vergi ilə əlaqədar məxfi informasiyanın elektron və digər daşıyıcılarda saxlanılması, həmçinin vergi sisteminin kiber hücumlardan qorunması məqsədilə Vergilər Nazirliyinin rəhbərliyi tərəfindən informasiya təhlükəsizliyinin idarə edilməsi sisteminin yaradılması, tətbiqi, istismarı, daim nəzarətdə saxlanılması və təkmilləşdirilməsi üçün ən yüksək beynəlxalq standartın - İSO/İEC 27001:2013 «İnformasiya təhlükəsizliyinin idarəetmə sistemləri» beynəlxalq standartının tətbiqinə başlanılmışdır. Vergilər Nazirliyi bu standarta uyğun fəaliyyət göstərməsinin təsdiqi kimi informasiya sisteminin İSO/İEC 27001:2013 standartına uyğun sertifatlaşdırılmasına nail olmuşdur.

Bütövlükdə dünyanın digər 26 ölkəsinin müxtəlif təşkilatları həmin sertifikatı əldə etmişdir. Britaniya Standartları İnstitutu (BSİ) tərəfindən İSO/İEC 27001:2013 standartına uyğun sertifikatlaşması aparılan təşkilatların sırasında Apple, Microsoft, BMW və digər tanınmış brendlər var. Yeni standartın tətbiqi ilə informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində risklərin və ya çatışmazlıqların vaxtında aşkar edilməsi və aradan qaldırılması, təhlükəsizlik üçün informasiyaların təsnifatlaşdırılması qaydasının və onların əhatə dairəsinin, eləcə də server otaqlarına dair tələblərin müəyyən edilməsi və s. kimi məsələlər də öz həllini tapacaqdır.

***Müsahibəni hazırladı:***
**Rəşad SADIQOV**

## BSİ standartları

Tauer körpüsünün layihə müəllifi ser Con Volfe-Berri 22 yanvar 1901-ci ildə dəmir yollarının və palıd məhsullarının vahid standart üzrə istehsal edilməsi üçün Standartlaşdırma Komitəsinin yaradılmasını təklif etmişdir. Həmin ilin 26 aprelində komitənin ilk iclası keçirilmiş və bu tarix Britaniya Standartları İnstitutunun (BSİ) faktiki təsis edildiyi gün kimi qəbul edilmişdir. 1942-ci ildə BSİ Böyük Britaniya imperiyasının milli standart üzrə ekslüziv təşkilatı kimi tanınaraq yer kürəsinin bütün qitələrində olan imperiyanın yeganə standart təsis edən təşkilatı olmuşdur.

1946-cı ildə Londonda keçirilən Britaniya Birliyinə daxil olan ölkələrin ilk Standartlar üzrə Konfransının nəticələrinə görə Beynəlxalq Standartlar Təşkilatı (İSO) təsis edilmişdir. Hazırda əksər ölkələrin üzv olduğu Beylənxalq Standartlar Təşkilatının (International Organization for Standardization» İSO) təsisçisi də məhz BSİ-dir.

1998-ci ildə BSİ artıq özü beynəlxalq təşkilata çevrilmiş, onun təsis etdiyi standartlar isə İSO tərəfindən şərtsiz qəbul edilir.

1999-cu ildən BSİ İnformasiya və kommunikasiya texnologiyaları üzrə standartlar təsis edərək onların tətbiqinə başlamışdır. Hazırda İSO 20000, İSO 9000, İSO 27031, İSO 9001 və nəhayət İSO 27001 dünyada qəbul edilmiş ən nüfuzlu standartlardır.

Müasir iqtisadiyyat və xarici ölkələrin bazarında yer tutmaq İSO standartlarına uyğun olmadan artıq mümkün hesab edilmir. Hazırda dünya iqtisadiyyatına təsir imkanlarına malik olan transmilli korporasiyaların, demək olar ki, hamısı BSİ sertifikatının alınmasını müasir iqtisadi münasibətlərində prioritet hesab edirlər. Azərbaycan Respublikasında BSİ-nin auditindən sonra İSO sertifikatı alan dövlət qurumu Azərbaycan Respublikası Dövlət Neft Fondudur.

Transmilli şirkətlər sertifikatlaşmanı BSİ beynəlxalq təşkilatına həvalə etmişdir.

İnformasiya və kommunikasiya sahələrinin inkişafı informasiya təhlükəsizliyinin qorunmasının aktuallığını üzə çıxarmışdır. Bu sahədə BSİ yenə də öz liderliyini saxlamaqdadır: Britaniya İnstitutunun təsis etdiyi İnformasiya təhlükəsizliyi üzrə İSO 27001:2005 standartı İKT təşkilatları tərəfindən istehlakçıların məlumat təhlükəsizliyinin qorunması tələbinin təmin edilməsi üçün mütləq şərt və keyfiyyət nişanəsinin göstəricisidir.. Artıq bu transmilli şirkətlər inkişaf edən və dəyişən texnologiyalara cavab vermək məqsədi ilə İSO 27001:2013 sertifikatına uyğun olması barədə fəaliyyətlərini bu tələblər üzərində qurmaq yolundadırlar.

Sevindirici haldır ki, Azərbaycan Respublikası Vergilər Nazirliyinin İnformasiya sistemləri və İnformasiya Təhlükəsizliyinin İdarəetməsi MDB məkanında və Böyük Britaniya istisna olmaqla Avropada İSO/İEC 27001:2013 sertifikatını alan ilk mərkəzi icra hakimiyyəti orqanıdır.

İSO 27001:2013 sertifikatının verilməsi bir daha sübut edir ki, Vergilər Nazirliyi İKT sahəsində əldə etdiyi nailiyyətlər MDB-də və Avropada dövlət qurumlarında birinci olmağa layiqdir. Vergi ödəyicilərinin və ümumiyyətlə hər hansı əlaqəli fəaliyyəti olan vətəndaşların və hüquqi şəxslərin informasiya təhlükəsizliyi təmin olunur.

## Fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların sayı artıb




2015-ci il avqust ayının 1-nə olan statistikaya əsasən, Dövlət Sosial Müdafiə Fondu tərəfindən iyul ayında əlavə olaraq 14 236 sığortaolunana fərdi şəxsi hesab açılıb. Cari ilin əvvəli ilə müqayisədə fondun fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların sayı 4,59 faiz artıb. Beləliklə, Azərbaycanda fərdi şəxsi hesabı olan sığortaolunanların sayı 3 113 053 nəfər olub. Qeydiyyatda olan sığortaolunanların 59,1 faizi (1 840 548 nəfər) kişi, 40,9 faizi (1 272 505 nəfər) isə qadındır.

Fərdi şəxsi hesabı olanlar arasında 30-40 yaş arası vətəndaşlar üstünlük təşkil edir: ümumi sığortaolunanların 24,89 faizi (774 756 nəfər) bu yaş kateqoriyalarına aiddir. 30 yaşa kimi olan şəxslər 21,49 faiz (669 039 nəfər), 40-50 yaş arasında olan şəxslər 20,65 faiz (642 931 nəfər), 50-60 yaş aralığında olan şəxslər 21,14 faiz (657 921 nəfər), 60 yaşdan yuxarı olan şəxslər isə 11,83 faiz (368 406 nəfər) təşkil edir.

2006-cı il yanvarın 1-dən Azərbaycan Respublikası mənbələrindən əmək ödənişi və məcburi dövlət sosial sığorta haqqına cəlb olunan digər gəlirləri əldə edən əcnəbilərin məcburi dövlət sosial sığortası ilə əhatə olunması prosesi həyata keçirilməkdədir. 2015-ci ilin avqustun 1-i tarixinə olan statistikaya əsasən, ilin əvvəlindən qeydiyyata alınan əcnəbilərin sayı 13,73 faiz artıb və 25 603 nəfərə yüksəlib.

Dövlət sosial sığorta sistemində fərdi şəxsi hesabı olan əcnəbilərin 88,43 faizini (22 652 nəfər) kişilər, 11,57 faizini (2 965 nəfər) qadınlar təşkil edir. Ümumilikdə 109 ölkənin vətəndaşlarını əhatə edən əcnəbilər arasında ən yüksək say göstəricisi Türkiyə vətəndaşlarına (13 091 nəfər) aiddir. İkinci yerdə gələn Gürcüstan vətəndaşlarının sayı 2 814 nəfərə, üçüncü yerdə gələn Rusiya Federasiyası vətəndaşlarının sayı isə 1 512 nəfərə çatıb.

Sonrakı yerlərdə İran İslam Respublikası (944), Çin Xalq Respublikası (835), Hindistan (824), Böyük Britaniya və Şimali İrlandiya Krallığı (525), Pakistan İslam Respublikası (514), Ukrayna (359), Banqladeş Xalq Respublikası (316), Özbəkistan (261), , Almaniya Federativ Respublikası (226), ABŞ (220), Filippin Respublikası (216), Türkmənistan Respublikası (201), Qazaxıstan Respublikası (191), Koreya (186), İtaliya Respublikası (178) və s. ölkələr qərarlaşıb.

**AYTƏN**



Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

## Vergi hesabatı

***Dəqiqləşdirilmiş hesabatı hansı hallarda və hansı müddətdə təqdim edə bilərəm?***

Vergi Məcəlləsinin (Məcəllə) məqsədləri üçün vergi hesabatı vergi bəyannaməsindən ibarətdir. Məcəllənin 72.2-ci maddəsində qeyd olunur ki, vergi hesabatını verməyə borclu olan vergi ödəyiciləri onu vergi orqanına bu Məcəllədə göstərilən müddətlərdə Vergilər Nazirliyinin müəyyənləşdirdiyi formada və yerdə verməlidirlər. Vergi hesabatları vergi ödəyicisi tərəfindən şəxsən və ya hesabatın təqdim edilməsi təsdiq oluna bilən hər hansı digər üsulla (rabitə təşkilatına təhvil verilməsi və ya qanunvericiliyə uyğun olaraq elektron sənəd formasında göndərilməsi də daxil olmaqla) təqdim edilə bilər.

Əvvəlki hesabat dövrləri üzrə təqdim edilmiş hesabatlardakı məlumatlar ilkin uçot sənədləri üzrə məlumatlara uyğun olmadığı hallarda vergi ödəyiciləri tərəfindən həmin hesabat dövrü üçün dəqiqləşdirilmiş hesabat təqdim edilməlidir. Dəqiqləşdirilmiş hesabat üzrə büdcəyə ödənilməli vergi məbləği əvvəl təqdim edilmiş hesabat üzrə büdcəyə ödənilməli vergi məbləğindən çox olduqda əlavə hesablanmış vergi məbləği faizlərlə birlikdə büdcəyə ödənilir, az olduqda isə hesablanmış vergi və faiz məbləğləri azaldılır (Məcəllə, maddə 72.5)

Vergi ödəyicisi tərəfindən dəqiqləşdirilmiş və ya vaxtında təqdim edilməmiş hesabatlar vergi ödəyicisində səyyar vergi yoxlamasının başlandığı günədək təqdim edilə bilər.

ƏDV ödəyicisi tərəfindən dövriyyənin dəqiqləşdirilməsi ilə bağlı məsələlər Məcəllənin 163-cü maddəsi ilə tənzimlənir. Əməliyyat tam və ya qismən ləğv edildikdə, o cümlədən mal tam və qismən geri qaytarıldıqda, əməliyyatın xarakteri dəyişdikdə, qiymətlərin aşağı düşməsi və ya hər hansı digər səbəbdən əməliyyat üçün razılaşdırılmış kompensasiya dəyişdikdə, yaxud vergi ödəyicisi elektron vergi hesab-faktura verdikdən sonra vergi tutulan dövriyyənin dəqiqləşdirilməsi üçün əsas verən hallar üzə çıxdıqda və bu cür dəqiqləşdirmə qanunvericiliyə müvafiq olaraq aparıldıqda mal göndərən, iş görən və xidmət göstərən vergi tutulan dövriyyəni dəqiqləşdirə bilər. Bir şərtlə ki, vergi ödəyicisi yuxarıda qeyd edilən hallardan biri nəticəsində ƏDV üçün elektron vergi hesab-fakturanı vermiş və ƏDV-nin məbləğini həmin elektron vergi hesab-fakturada, yaxud ƏDV-nin bəyannaməsində verginin məbləğini düzgün göstərməmiş olsun. Bu zaman ödənilməli olan ƏDV-nin məbləği vergi ödəyicisinin bəyannamədə göstərdiyi ƏDV-nin məbləğindən artıq olduqda, artıq məbləğ dəqiqləşdirmənin aparılmasına əsas olan halların yarandığı hesabat dövrü ərzində ödənilməli olan ƏDV sayılır və Məcəllənin 174.1-ci maddəsinə uyğun olaraq hesabat dövrü ərzində ödənilməli olan verginin məbləğinə əlavə edilir. Yuxarıda qeyd edilən hallarda bəyannamədə büdcəyə çatası ƏDV-nin məbləği düzgün göstərilməmişdirsə, büdcəyə ödənilməli olan ƏDV-nin məbləği həmin halların yarandığı hesabat dövrü üzrə vergi ödəyicisi tərəfindən təqdim edilmiş bəyannamədə dəqiqləşdirilir.

# İpotekanın yeni modeli – sosial evlər

Prezident İlham Əliyev sosial ipotekanın həcminin artırılması və vəsaitlərin verilməsi mexanizminin təkmilləşdirilməsi barədə müvafiq qurumlara tapşırıqlar verib. Mərkəzi Bank (MB) və İpoteka Fondu ilə yanaşı, təkmilləşdirilməsi və əhatəsinin genişləndirilməsi məqsədilə yeni layihə hazırlayıb.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin hazırladığı yeni təkliflər paketində mənzilə ehtiyacı olan ailələrin problemlərinin həlli məqsədilə kredit faizlərinin aşağı salınması, aylıq ödəniş məbləğinin azaldılması və ipotekanın regionlarda geniş tətbiqi əks olunub. Komitənin sədr müavini Sədaqət Qəhrəmanova bildirib ki, təkliflər hazırlanarkən beynəlxalq maliyyə-bank təşkilatlarının təcrübəsi və bu sahə üzrə tanınmış xarici ekspertlərin rəyləri nəzərə alınıb.



Sosial ipotekanın Amerika və Almaniya modelini məqbul sayan MB isə həmin ölkələrin təcrübəsinə əsasən əldə edilmiş məlumatlar üzrə müxtəlif təhlillər aparıldığını bəyan edib. Bu modelə əsasən, ipoteka sisteminin davamlılığı üçün təkcə sosial yardımla kifayətlənmək məqsədəuyğun hesab edilmir. Sosial ipotekanın mənbələri dövlətin maliyyə resursları ilə yanaşı, digər əlavə mənbələr hesabına formalaşır. Maliyyələşmə mənbələri kimi qiymətli kağızlardan, kredit və qrantlardan, həmçinin Dövlət Neft Fondunun və Maliyyə Nazirliyinin səhm və istiqrazlarından da istifadə oluna bilər. Əhalinin öz yığımları hesabına ipoteka kreditləri əldə etməsi, bank olmayan kredit təşkilatlarının bu prosesə cəlb olunması məsələsi də nəzərdən keçirilir. Bu mənbələr hesabına ipoteka rezervlərinin ən azı 2-3 dəfə artması mümkündür.

**Milli Məclisin payız sessiyasında sosial mənzillərin tikilməsi ilə bağlı məsələ müzakirəyə çıxarılacaq**

MB İdarə Heyətinin sədri Elman Rüstəmov bildirib ki, yaxın günlərdə hökumətə təqdim olunacaq sənəddə nəzərdə tutulan mühüm məsələlər sosial ipoteka şərtlərinin yüngülləşdirilməsi, faiz dərəcələrinin aşağı salınması və ilkin ödəniş şərtlərinin asanlaşdırılmasıdır. Beynəlxalq təcrübəyə, o cümlədən qardaş Türkiyə və Qazaxıstanın təcrübəsinə uyğun olaraq dövlət və xüsusi bölmə partnyorluğu əsasında dövlətin «ekonom klass» mənzil tikintisinin genişləndirilməsi və sosial ipoteka ilə əlaqələndirilməsi təklif edilir. Bundan başqa, dövlətin ayırdığı maliyyə vəsaitləri hesabına ipoteka bazarı iştirakçılarının tələblərini tamamilə ödəmək mümkün olmadığından alternativ variantların tətbiqi də istisna edilmir. Adi ipoteka kreditləşməsinin genişləndirilməsi üçün əlavə bazar mənbələrinin cəlbi, yeni ipoteka məhsullarının yaradılması zəruridir. Yeni strategiya çərçivəsində əhalinin öz yığımları hesabına birbaşa ipoteka ilə mənzil alması da məqsədəuyğun hesab olunur. Bu, Almaniyanın tikinti-əmanət bankları modeli təcrübəsinə əsaslanır.

Milli Məclisin Sosial siyasət komitəsinin sədr müavini Musa Quliyev isə yeni proqrama sosial evlər modelinin tətbiqi ilə bağlı layihənin daxil edilməsini vacib saydığını bildirib. Millət vəkili vurğulayıb ki, sosial ipoteka kreditlərinin verilməsinə baxmayaraq, ehtiyacı olan minlərlə ailənin mənzil ehtiyacını həll etmək mümkün olmur. İpoteka kreditlərini ödəməyə gənc ailələrin əksəriyyətinin imkanı çatmır, orta aylıq əməkhaqqı həcmində maaş yalnız onların aylıq istehlak xərclərinə kifayət edir. Buna görə də ipoteka kreditləri üçün aylıq ödənilən məbləğdən 2-3 dəfə aşağı həcmdə ödənişlə mümkün olan sosial evlər layihəsini reallaşdırmaqla on minlərlə insanın mənzil problemini həll etmək mümkündür.

Sosial evlər layihəsində dövlət birbaşa investor kimi çıxış edir və evlər mühüm proqram çərçivəsində tikilir. Bu zaman tikinti-quraşdırma və təmir xərcləri özəl şirkətlərlə nisbətdə iki dəfə ucuz başa gəlir və mənzillərin dəyəri real bazar qiymətindən xeyli aşağı olur. Məsələn, 75 kvadratmetrlik təmirli mənzilin dəyəri 30-35 min manat təşkil edir. Həmin qiymətə uyğun 20-25 illik ödəmə cədvəli tərtib olunur. Nəticədə aylıq 100-150 manat ödəməklə insanların mənzil təminatı həll edilir.

Millət vəkili bildirib ki, Milli Məclisin payız sessiyasında sosial mənzillərin tikilməsi ilə bağlı məsələ müzakirəyə çıxarılacaq.

**ELBRUS**

# Nəzarət tədbirlərinin nəticələrinin açıqlanması şəffaflığın artırılmasına xidmət edir

*Hesablama Palatası ötən ildən başlayaraq qanunvericiliklə nəzərdə tutulmuş qaydada illik fəaliyyəti ilə bağlı hesabatdan əlavə, 6 ay ərzində həyata keçirilmiş nəzarət tədbirləri üzrə də məlumatlar təqdim edir. Nəzarət tədbirlərinin nəticələrinin açıqlanması nə kimi məqsəd daşıyır? Yarımillik hesabat dövrü ümumiləşdirilsə, hansı məqamları xüsusi qeyd etmək olar? Hesablama Palatasının sədri Vüqar Gülməmmədovun şərhi*

Bu ilin birinci yarısında 34 nəzarət tədbirinin nəticələri ilə bağlı qərarlar qəbul olunub və bu tədbirlər 2012-2014-cü illər üçün dövlət büdcəsi xərclərinin müxtəlif dövrlər üzrə icrasını əhatə edib. Həyata keçirilən nəzarət tədbirlərinin nəticələri əvvəlki audit tədbirlərində müşahidə olunan meyillərin və rast gəlinən nöqsanların hələ də təkrarlandığını göstərir. Belə ki, dövlət satınalmalarını tənzimləyən qanunvericilik aktlarının tələblərinin bu və ya digər aspektlərdən pozulması halları, demək olar ki, bütün nəzarət obyektlərinə xas olub. Həmçinin vəsaitin təyinatının dəyişdirilərək icra edilməsi halı da ən çox rast gəlinən meyillərdəndir. Qeyd edim ki, bu hal təkcə xərclərin iqtisadi təsnifat kodunun dəyişdirilməsini deyil, həmçinin vəsaitin funksional fəaliyyətə aid olmayan tədbirlərə yönəldilməsini nəzərdə tutur.

Eyni zamanda, cari ilin ilk 6 ayı üzrə əldə edilmiş nəticələrə görə, təmir-tikinti ilə bağlı fəaliyyətin təmin edilməsi zamanı yol verilmiş nöqsanların dövlət büdcəsinə bərpa edilmiş vəsaitlərin tərkibində ən böyük xüsusi çəkiyə malik olduğu müəyyənləşib. Biz Hesablama Palatasının 2014-cü ildəki fəaliyyətinə dair hesabatın təqdimatı zamanı da qeyd etmişdik ki, tikintidə müqavilə qiymətinin mövcud müəyyənedilmə qaydası dəyişdirilməlidir. Çünki bu metodikada artıq xərclərin yaranması riski mövcuddur. Ümumiyyətlə, büdcə xərcləmələrinə dair bəzi normativ bazanın gücləndirilməsinə ehtiyac var.

Hesablama Palatasının fəaliyyətini tənzimləyən qanunvericilik aktlarında müstəqillik, obyektivlik, kollegiallıq, şəffaflıq, ədalətlilik və peşəkarlıq prinsipləri Palatanın fəaliyyətinin əsas prinsipləri kimi göstərilir və biz fəaliyyətimizdə bu prinsipləri rəhbər tuturuq. Bir faktı qeyd edim ki, mərkəzi və yerli dövlət orqanlarının onlayn şəffaflıq vəziyyəti ilə bağlı aparılmış son monitorinqin nəticələrinə əsasən Palata 73 mərkəzi dövlət orqanı arasında 7-ci yerdədir və əvvəlki nəticəyə nisbətən 6 pillə irəliləyib. Hərçənd, biz bu göstərici ilə razı deyilik və hesab edirik ki, daha dəqiq araşdırma aparılmalı idi.

Hesablama Palatasının öz fəaliyyətinin illik nəticələri ilə yanaşı, altı ay üzrə məlumat təqdim etməsində də əsas məqsəd ictimaiyyətin Palata və onun yerinə yetirdiyi funksiyalar barədə daha çox məlumatlandırılmasıdır.

Diqqətə çatdırım ki, Palata öz rəsmi saytı vasitəsilə büdcəsinin icrasına dair ətraflı rüblük məlumatlar təqdim edir. Eyni zamanda, Hesablama Palatasının hesabatları dövlət büdcəsinə dair çox dəyərli informasiya mənbəyidir. Saytımızda 2014-cü ilin dövlət büdcəsinin icrasına və Palatanın fəaliyyətinə dair rəy və hesabat geniş şəkildə təqdim olunub. Başa çatmış audit tədbirləri üzrə kollegiya iclasları ilə bağlı müntəzəm olaraq informasiyalar dərc edilir.

Təbii ki, şəffaflığın təmin edilməsində vacib şərtlərdən biri də dövlət vəsaitlərinin icrası ilə bağlı həyata keçirilmiş nəzarət tədbirlərinin nəticələrinin açıqlanmasıdır. Hazırda Palatanın rəsmi saytının yeni variantı üzrə işlər yekunlaşma ərəfəsindədir. Həyata keçirilmiş nəzarət tədbirlərinin nəticələri üzrə məlumatların dərci ilə bağlı tədbirlər planı hazırlanıb və bu istiqamətdə addımlar atılmaqdadır. Məlumatlar onların forma və məzmunu ilə bağlı Hesablama Palatası Kollegiyasının müvafiq qərarından sonra tezliklə saytda yerləşdiriləcək.

Palatanın həyata keçirdiyi nəzarət tədbirlərinin əsas məqsədi maliyyə inzibatçılığının gücləndirilməsi və hesabatlılığın artırılmasıdır. Bunlar isə, öz növbəsində, dövlət vəsaitlərinin istifadəsində qənaətlilik, səmərəlilik və nəticəliliyin yüksəldilməsinə xidmət edir. Bu baxımdan, nəzarət tədbirləri ilə bağlı görülmüş işlərin də qayəsini məhz bu prinsiplər təşkil edir. Yol verilmiş nöqsanlar nəticəsində vəsaitlərin müvafiq qanunvericiliyə uyğun olaraq audit obyektləri tərəfindən bərpa edilməsi, işlərin və xidmətlərin görülməsi fəaliyyətin əsas göstəriciləridir. Bununla yanaşı, maliyyə inzibatçılığının pozulmasına yol vermiş vəzifəli şəxslərlə bağlı intizam-tənbeh tədbirləri, digər nəticə göstəriciləri kimi, müvafiq qurumlar tərəfindən atılan addımlardandır. Mövcud Qanun Palata tərəfindən yalnız korrupsiya ehtimalı olan faktlara görə materialların hüquq-mühafizə orqanlarına göndərilməsini tələb edir. Audit tədbirlərinin nəticələrinə görə Hesablama Palatası, bütün hallarda, müvafiq kollegiya qərarında günahkar şəxslərin ciddi cəzalandırılmasına, qanunvericiliklə nəzərdə tutulmuş qaydada tədbirlərin görülməsinə dair tələb qoyur. Lakin bu şəxsə hansı inzibati cəzanın verilməsi audit olunan struktur vahidinin rəhbərinin və mərkəzi icra hakimiyyətinin səlahiyyətlərinə aiddir.

Qeyd edim ki, intizam-tənbeh tədbirləri dövlət vəsaitlərinin müvafiq qaydada icra olunmasında nöqsanlara yol vermiş şəxslərin cəzalandırılmasıdırsa, digər tərəfdən, bu, oxşar nöqsanlara yol verilməməsi baxımından preventiv addımdır.

Mövcud qanunvericilik aktları bu istiqamətdə Palatanın səlahiyyətlərini təmin etməkdədir. Belə ki, «Hesablama Palatası haqqında» Azərbaycan Respublikası Qanunu ilə bütün qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün müəssisələr, təşkilatlar, idarələr və onların vəzifəli şəxsləri Hesablama Palatasının müraciətləri əsasında qanunvericiliklə nəzərdə tutulmuş səlahiyyətlərinin yerinə yetirilməsi üçün ona zəruri olan məlumatları bir ay müddətindən gec olmayaraq verməlidirlər. Vəzifəli şəxslər bununla bağlı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Eyni zamanda, diqqətə çatdırım ki, «Dövlət sirri haqqında» Azərbaycan Respublikası Qanununun 21-ci maddəsi ilə Hesablama Palatasının üzvləri dövlət sirri təşkil edən məlumatlarla işləmək hüququna malikdirlər və onların bu məlumatları müvafiq yoxlamalara məruz qalmadan əldə etmək imkanları var. Palatanın vəzifəli şəxsləri müvafiq qaydada dövlət sirri təşkil edən məlumatları əldə edə bilirlər.

Praktikada bəzən tələb olunan məlumatların tam və vaxtında verilməməsi halları olur. Lakin Palatanın həmin hesabat və məlumatların alınmasında problemi yoxdur. Diqqətə çatdırmaq istərdim ki, hesabatlılıq maliyyə nəzarəti üçün əsas şərtdir.

Bununla yanaşı, dövlət vəsaitlərinin istifadəsi ilə bağlı Prezident tərəfindən müəyyən edilmiş meyarları, eyni zamanda müasir dövrün çağırışlarını və beynəlxalq standart və təcrübələri əsas götürərək Palatanın məlumat əldə etməklə bağlı səlahiyyətləri onun fəaliyyətini tənzimləyən yeni qanun layihəsində bir qədər də genişləndirilib.

Mövcud siyasi-iqtisadi vəziyyət büdcə xərclərinin yeni iqtisadi reallıqlara uyğunlaşdırılmasını, ortamüddətli dövrdə büdcənin balanslaşdırılmasını diktə edir.

Cari dövrün xüsusilə həssas bir dövr olduğunu, növbəti ildə də dövlət vəsaitlərinin istifadəsi ilə yanaşı, proqnozlaşdırılmasına da ehtiyatlı yanaşmanın zəruriliyini əsas tutaraq, Palata öz təkliflərini 2016-cı ilin büdcə müzakirələrində nəzərə alınması məqsədilə Milli Məclisə təqdim edib. Həm bu təkliflər, həm də Palatanın büdcə layihələri və dövlət büdcəsinin icrası ilə bağlı rəylərində əks olunan təkliflərin müəyyən hissəsi məhz bu məqsədi daşıyır.

Büdcə vəsaitlərinin səmərəli və qənaətli istifadəsinin bir yolu da həmin vəsaitlərin əsaslı planlaşdırılması və proqnozlaşdırılmasıdır. Başqa sözlə desək, xüsusilə bu həssas dövrdə tədbirlərin müəyyən edilmiş hədəf və vəzifələrə uyğunlaşdırılmasını təmin etmək vacibdir. Tədbir və hədəflərin uzlaşdırılması, eyni zamanda, büdcənin qənaətli icrası, həmçinin dövlət borcunun optimal idarə edilməsi, son nəticədə Dövlət Neft Fondundan transfertlərin məbləğinin azaldılmasını, nəticəliliyin əldə olunmasını da təmin edər.

Ümumiləşdirmə aparsaq, deyə bilərəm ki, növbəti ildə dövlət büdcəsinin xərclərinin büdcənin gözlənilən icrasından çox olmamaqla proqnozlaşdırılması, büdcə kəsirinin beynəlxalq səviyyədə qəbul olunan norma daxilində planlaşdırılması və örtülməsi daha çox daxili borclanma və digər mənbələr istiqamətində əməli tədbirlər görülməsi hesabına məqsədəuyğun olardı. Əsaslı xərclərlə yanaşı, cari xərclərdə də azalma mənbələri mövcuddur. Belə ki, büdcədən maliyyələşən təşkilatlar öz büdcələrində hansı xərclərin artıq olmasını daha yaxşı bilirlər və buna görə də müvafiq təkliflə müraciət etməlidirlər.

Əsas məqsəd xərclərin azaldılması deyil. Büdcə xərclərinin müəyyən hissəsinin multiplikativ effektlə iqtisadi artıma dəstək olduğu nəzərə alınmalıdır. Xərclər dövlətimizin başçısının müəyyən etdiyi prioritet istiqamətlərin icrasını tam şəkildə təmin etməlidir. Bu istiqamətdə isə səmərəlilik və qənaətlilik meyarları önə çıxır.

İnanırıq ki, hər il olduğu kimi, növbəti ilin büdcəsi də ölkənin inkişaf prioritetlərinə uyğun tərtib və təsdiq ediləcək.

# Şou biznes nümayəndələri vergi öhdəliklərinə əməl etməlidirlər

***Dünyanın bir çox ölkələrində, eləcə də Türkiyədə hər il elan olunan vergi rekordçuları siyahısında məşhur sənət adamlarının adları xüsusi yer tutur. Bu ölkədə rekord məbləğdə vergi ödəyən məşhurların ilk beşliyində maraqlı televiziya layihələri ilə tanınan Acun Ilıcalı, şoumen Cem Yılmaz və müğənni Seda Sayanın adı var.***

***Bəs Azərbaycanda vəziyyət necədir? Şou biznesin üzdə olan nümayəndələri nə qədər vergi ödəyirlər? Onların özlərinin açıq şəkildə mətbuatda elan etdikləri yüksək gəlirlərlə ödədikləri vergilər arasında uyğunluq varmı?***

***Müğənnilərin gəlirləri 120 min manatı ötdükdə ƏDV və gəlir vergisinin ödəyicisi olmalıdırlar***

Qanuna görə, müğənnilik fəaliyyəti ilə məşğul olan şəxslər fəaliyyətə başladıqları günədək yaşadıqları yer üzrə vergi orqanında vergi ödəyicisi kimi uçota durmalıdırlar. Vergi Məcəlləsinin 218.1-ci maddəsinə əsasən, həmin şəxslərin ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlarının həcmi 120.000 manat və ondan az olduqda onlar sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququna malikdirlər. Müğənnilik fəaliyyəti ilə bağlı əldə olunan gəlirlərdən Bakı şəhərində 4 faiz, digər şəhər və rayonlarda, habelə Naxçıvan Muxtar Respublikasında 2 faiz dərəcə ilə sadələşdirilmiş vergi ödənilir. Bu fəaliyyətlə məşğul olan şəxslər sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququndan istifadə etmədikləri halda, gəlir vergisinin ödəyicisi olurlar və bu fəaliyyətdən əldə etdikləri gəlirlərindən həmin gəlirin əldə edilməsi ilə bağlı çəkilmiş xərcləri çıxıldıqdan sonra qalan məbləğ 20 faiz dərəcə ilə gəlir vergisinə cəlb edilir.

Vergi Məcəlləsinin 155.1-ci maddəsinə əsasən, qeyd olunan fəaliyyətlə məşğul olan şəxslərin ardıcıl 12 aylıq dövrün istənilən ayında vergi tutulan əməliyyatlarının həcmi 120.000 manat və ondan artıq olduğu halda, onlar əlavə dəyər vergisinin (ƏDV) məqsədləri üçün qeydiyyata alınaraq hər ay üzrə göstərdikləri xidmətlərin dəyərindən 18 faiz dərəcə ilə ƏDV hesablamaqla yanaşı, müğənnilik fəaliyyətindən əldə etdikləri gəlirlərindən həmin gəlirin əldə edilməsi ilə bağlı çəkilmiş xərcləri çıxdıqdan sonra qalan məbləğdən 20% dərəcə ilə gəlir vergisi hesablayıb dövlət büdcəsinə ödəməlidirlər.

***Əsas problem gəlirlərin rəsmiləşdirilməməsidir***

Vergi orqanları tərəfindən musiqi fəaliyyəti ilə məşğul olan şəxslərin əldə etdikləri gəlirlərə nəzarət Azərbaycan Respublikası vergilər nazirinin əmri ilə təsdiq edilmiş və Ədliyyə Nazirliyində Dövlət qeydiyyatına alınmış «Musiqi, əyləncə və digər xidmət fəaliyyəti ilə məşğul olan şəxslərin əldə etdikləri gəlirlərin uçotuna nəzarətin həyata keçirilməsi və gəlirlərin qeydiyyatı kitabının doldurulması qaydaları»na əsasən həyata keçirilir. Qaydalara görə, bütün şadlıq evləri və digər əyləncə obyektləri ərazi üzrə vergi orqanı tərəfindən nömrələnmiş, qaytanlanmış və möhürlənmiş xüsusi «Qeydiyyat kitabı» ilə təmin edilmişdir. Həmin kitabda qeydiyyatın sıra sayı, musiqi, əyləncə və digər xidmətlər göstərən şəxsin soyadı, adı və atasının adı, VÖEN-i, musiqi, əyləncə və digər xidmətlər göstərilən tarix, xidmətin başlandığı və sona çatdığı vaxt, istirahət, əyləncə, ictimai iaşə və digər obyektlərin məxsus olduqları vergi ödəyiciləri ilə xidmətlər göstərən şəxslər arasında bağlanmış müqavilələrdə göstərilən ödənilməli məbləğ, istirahət, əyləncə, ictimai iaşə və digər obyektlərin məxsus olduqları vergi ödəyicisinin və onun səlahiyyətli nümayəndəsinin soyadı, adı və atasının adı, istirahət, əyləncə, ictimai iaşə və digər obyektlərin məxsus olduqları vergi ödəyicisinin və onun səlahiyyətli nümayəndəsinin imzası, musiqi, əyləncə və digər xidmətlər göstərilən şəxsin imzası əks olunur. Bu kitabda qeydlər hər bir musiqiçinin və digər əyləncə xidməti göstərən şəxsin ifaya başlamasından əvvəl aparılır. Aidiyyəti vergi orqanları hər ay ərazi üzrə istirahət, əyləncə, iaşə və digər obyektlərdə keçirilmiş tədbirlərdə musiqi xidmətləri göstərən şəxslərin əldə etdikləri gəlirlər barədə «Qeydiyyat kitabı»nda olan məlumatları toplayb icmallaşdırırlar.

Vergilər Nazirliyi istər müğənnilər, istərsə də şou biznes ilə məşğul olan digər sənət adamları ilə bağlı müntəzəm maarifləndirmə və nəzarət tədbirləri həyata keçirir, vergidən yayınanlara mütəmadi olaraq xəbərdarlıqlar göndərir. Nazirliyin bu günlərdə yaydığı bəyanatda bir daha vurğulanmışdır ki, görülən tədbirlərə baxmayaraq, onların bir qismi dövlət büdcəsinə ödəməli olduqlarından xeyli az vergi ödəyirlər. Şou biznes nümayəndələri vergidən yayınmanın müxtəlif üsullarından istifadə edirlər. Ən əsas problem isə gəlirlərin rəsmiləşdirilməməsidir. Bu təbəqədən olan vergi ödəyiciləri əldə etdikləri gəlirləri qazanc əldə etdikləri obyektlərin «Qeydiyyat kitabı»nda düzgün əks etdirmirlər. Hətta göstərdikləri və imzaları ilə təsdiq etdikləri gəlirlərlə rüblük bəyannamələrdə qeyd olunan gəlir məbləğləri arasında uyğunsuzluqlar yaranır. Müğənnilərin bir şənlik mərasimindən əldə etdikləri gəlirlərin onların bəyan etdikləri rüblük gəlirdən dəfələrlə çox olması barədə kifayət qədər məlumatlar var. Araşdırmalar göstərir ki, istər Bakı şəhərində, istərsə də respublikanın digər bölgələrində fəaliyyət göstərən istirahət, əyləncə, ictimai iaşə və digər obyektlərdə bir çox hallarda «Qeydiyyat kitabı»nın aparılmasına lazımi diqqət yetirilmir, burada çıxış edən müğənnilərin aldıqları qonorarların cüzi bir hissəsi əks olunur.

*Araşdırmalar göstərir ki, istər Bakı şəhərində, istərsə də respublikanın digər bölgələrində fəaliyyət göstərən istirahət, əyləncə, ictimai iaşə və digər obyektlərdə bir çox hallarda «Qeydiyyat kitabı»nın aparılmasına lazımi diqqət yetirilmir, burada çıxış edən müğənnilərin aldıqları qonorarların cüzi bir hissəsi əks olunur.*

***Kimin hansı dərəcədə məşhurluğundan asılı olmayaraq...***

Sıravi insanların belə apardıqları gündəlik müşahidələr və kütləvi informasiya vasitələrində yer alan məlumatlar el şənliklərində musiqiçilərə ödənilən məbləğlər barədə müəyyən təxmin söyləməyə əsas verir. Bu təxmin vergitutma üçün birbaşa istinad materialı kimi qəbul edilmir. Lakin yüksək məbləğdə gəlirlər əldə edib vergilərin dövlət büdcəsindən yayındırılmasına şərait yaradanlar qanun və dövlət qarşısında öz məsuliyyətlərini anlamalıdırlar. Hər kəs vergi orqanına təqdim etdiyi bəyannamədə öz gəlirləri barədə məlumatı düzgün göstərməlidir. Əks təqdirdə, Vergi Məcəlləsinin 67-ci maddəsinə uyğun olaraq, vergidən yayındırılmış məbləğlər kameral hesablama aparılmaqla büdcəyə bərpa olunur. Vergilər Nazirliyi dəfələrlə bəyan etmişdir ki, kimin hansı dərəcədə məşhurluğundan asılı olmayaraq vergiləri tam və vaxtında ödəmək öhdəliyi hamı üçün eynidir. «Qeydiyyat kitabı»nda göstərilən gəlir məbləğlərinin azaldılması üçün hər iki tərəf - həm gəliri əldə edən, həm də onu ödəyən şəxslər məsuliyyət daşıyırlar.Buna məhəl qoymayanlar isə gec-tez ciddi sanksiyalarla, eləcə də digər məsuliyyətə cəlbetmə tədbirləri ilə üzləşməli olacaqlar.

**Rəşad SADIQOV**

# Azərbaycanın investisiya reytinqini «sabit» saxlanılıb

«Fitch Ratings» beynəlxalq kredit reyting agentliyi Azərbaycan Respublikasının uzunmüddətli yerli və xarici valyutada reytinqini «BBB-» investisiya səviyyəsində bir daha təsdiq edərək proqnozu «sabit» saxlayıb. Maliyyə Nazirliyindən bildirildiyinə görə, aparıcı beynəlxalq kredit reytinq agentliyi tərəfindən Azərbaycana «BBB-» investisiya səviyyəli «sabit» proqnozlu dərəcənin bir daha təsdiqi ölkə iqtisadiyyatının dayanıqlıq potensialını nümayiş etdirməklə yanaşı, ona beynəlxalq maliyyə icması tərəfindən etimadın yüksək olaraq qalmasının əyani sübutudur.

Azərbaycanın investisiya səviyyəli reytinqi ölkənin aşağı suveren borcu, 2006-cı ildən yüksək xammal qiymətləri və cari hesabın müsbət saldosu nəticəsində yığılmış iri həcmdə xarici valyuta aktivlərini əks etdirir. Reytinq üzrə proqnozu sabit saxlayan agentliyin qənaəti budur ki, hökumət vergi gəlirlərində və kapital xərclərində, habelə milli valyutanın məzənnəsi ilə bağlı təsirli nizamlayıcı addımlar atmaqla mövcud valyuta ehtiyatlarının azalmasının qarşısını alacaq. Qlobal iqtisadi mühitdə cərəyan edən qeyri-sabitlik və xammal məhsullarının, o cümlədən neft və neft məhsullarının qiymətlərinin kəskin şəkildə aşağı düşməsi fonunda «Fitch Ratings» tərəfindən Azərbaycan Respublikasının uzunmüddətli yerli və xarici valyutada reytinqinin «BBB-» investisiya səviyyəsində bir daha təsdiq olunması ölkə iqtisadiyyatının dayanıqlıq potensialını nümayiş etdirir.

Hazırda Azərbaycanın mövcud maliyyə resursları və ən aşağı səviyyədə xarici borc əmsalına malik olması «BBB-»səviyyəsi qrupundakı ölkələr sırasında yerinin kifayət qədər sabit və nikbin olduğunu göstərir. Bu, həmçinin əverişlı biznes mühiti şəraitində qarşılıqlı sərmayələrin axını və beynəlxalq investisiya bazarlarında iştiraka imkan yaradır. Bundan başqa, respublikamızdakı biznes mühiti və xarici sərmayədarların fəaliyyətinin genişlənməsi üçün əlverişli rol oynayır.

Qeyd olunduğuna görə, xarici sərmayələrin artmasına «Şahdəniz -2» qaz layihəsi çərçivəsində görüləcək işlər və 2017-ci ildən sonar neft-qaz obyektlərinin modernləşdirilməsi, yeni infrastrukturların yaradılması öz təsirini göstərəcək.

«Fitch Ratings»in analitiklərinin fikrincə, neftin orta ilik qiyməti bir barel üçün 2015-ci ildə 65 dollar, 2016-cı ildə 75 dolar, 2017-ci ildə isə 80 dollarcivarında proqnozlaşdırılır. 2015-2017-ci illərdə neft hasilatının sabit səviyyədə qalacağı gözlənilən Azərbaycanda neftdənkənar sahələrin inkişafı ilə bağlı nikbin ssenari mövcuddur. Hökumətin yürütdüyü siyasət hazırda həm ÜDM-də, həm də dövlət büdcə gəlirlərində qeyri-neft sektorunun payının artmasına səbəb olmaqdadır. 2015-ci ilin ötən ayları ərzində pərakəndə ticarət, tikinti və qeyri-neft sahələrində istehsalın artması müşayiət olunub və növbəti ildə də bu prosesin davam edəcəyi gözlənilir. Qeyri-neft gəlirləri 2015-ci ildə 12,5% -dən 2017-ci ildə 15,0% -ə qədər artacaq. Qarşıdakı iki il ərzində qeyri-neft sektoru üzrə vergi yığımlarının artması da proqnozlaşdırılır.

Qeyd edək ki, bütün dünyada nüfuzlu reytinq agentliyi kimi tanınan beynəlxalq «Fitch Ratings» korporasiyası 24 dekabr 1913-cü ildə Nyu Yorkda Con Noulz Fitç tərəfindən Fitch Publishing Company nəşriyyatı kimi yaradılıb. O vaxtdan bəri öz əhatə dairəsini genişləndirən bu qurumun əsas fəaliyyəti dünya kredit bazarlarına kredit qabiliyyətinin qiymətləndirilməsinə görə analitik tədqiqatların nəticələrini və məlumatları hazırlamaqdır. Hazırda agentliyin Nyu-Yorkda və Londonda iki mənzil qərargahı var.

**ELBRUS**

# Kənd təsərrüfatına dövlətin maliyyə dəstəyi artırılır

*Kənd təsərrüfatına subsidiyaların verilməsi 2007-ci ildən tətbiq olunur. Son 8 ildə kənd təsərrüfatı mülkiyyətçilərinə dövlət büdcəsi hesabına 793,6 milyon manat həcmində subsidiya verilib.*

Nazirlər Kabinetinin qəbul etdiyi yeni qərara əsasən, kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına görə verilən subsidiyaların həcmi artırılıb, eyni zamanda mineral gübrələrə görə tətbiq olunan güzəştlərin əhatəsi genişləndirilib.

Qərara əsasən, istehsalçılara bitkilərin əkin sahəsinə və çoxillik əkmələrə görə hər hektara verilən subsidiyaların məbləği 50 manatdan 80 manata qaldırılıb. İndiyədək fermerlerə 50 faiz güzəştlə satılan mineral gübrələrin miqdarı 70 faiz həcmində müəyyən edilib. Fermerlər il ərzində kənd təsərrüfatı təyinatlı torpaq sahələrində aparılan təkrar əkinlərə görə növbəti dəfə, yəni 2 dəfə subsidiya almaq imkanlarına malik olacaq. Dəyişikliyə əsasən, subsidiyalar taxıl əkini ilə məşğul olan fermerlərlə yanaşı, çəltik səpən mülkiyyətçilərə də veriləcək. Subsidiyaların verilməsində ünvanlılığın təmin edilməsi, bürokratik halların aradan qaldırılması və vəsaitin birbaşa mülkiyyətçinin özünə çatması üçün kənd ərazilərində yaşayan ağsaqqalların prosesdə iştirakı təmin ediləcək. İstehsalçılar yaşadıqları ərazinin icra nümayəndəliklərinə və ərazi kənd təsərrüfatı idarələrinə lazım olan sənədləri təqdim etməklə qeydiyyata alınacaqlar. Kənd ərazi komissiyalarına rayon icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə nümayəndəsi, kənd bələdiyyəsinin sədri ilə yanaşı, kəndin iki ağsaqqallı da cəlb olunacaq. Onların təsdiq etdiyi sənəd əsasında istehsalçıya subsidiya verilməsi və güzəştlərin tətbiqi həyata keçiriləcək. İstehsalçı ildə iki dəfə: əsas əkinlər üzrə martın 15-dək, təkrar əkinlər üzrə iyulun 1-dək müraciət edəcək. Bu mexanizm əsasında mülkiyyətçilərin il ərzində iki dəfə subsidiya alması təmin olunacaq.

Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Firdovsi Fikrətzadə hesab edir ki, subsidiyaların həcminin artırılması və kənd təsərrüfatı mülkiyyətçilərinə dövlət dəstəyi tədbirlərinin gücləndirilməsi aqrar sahəyə marağın artmasına səbəb olacaq. Bu isə istehsalın çoxalmasına öz təsirini göstərəcək. Kənd mülkiyyətçilərinin əkin xərclərinin müəyyən qədər azalması isə məhsulun maya dəyərinə öz təsirini göstərəcək ki, bu da qiymətlərin ucuzlaşması üçün imkan yaradacaq.

***Subsidiyalar nağdsız qaydada veriləcək***

Subsidiyaların verilməsində bəzi neqativ halları aradan qaldırmaq üçün vəsaitlərin nağdsız qaydada verilməsi nəzərdə tutulur. Kənd təsərrüfatı məhsullarının istehsalçısı olan hüquqi şəxslərə yardımlar onların hesablarına köçürüləcək, fiziki şəxslər isə vəsaitləri onlara verilmiş müvəkkil bankın plastik kartları ilə əldə edəcəklər. Bank kartları xərcləri və bank xidmətinin göstərilməsi dövlət büdcəsinin vəsaiti hesabına təmin ediləcək. Şəffaflığın təmin olunmasında digər addımlardan biri də bu prosesin tamamilə elektronlaşdırılmasıdır. Hazırda Kənd Təsərrüfatı Nazirliyində elektron təsərrüfat sisteminin qurulması üzərində işlər yekunlaşmaq üzrədir. Bu sistemin mahiyyəti təkcə subsidiyaların verilməsi deyil, ümumilikdə kənd təsərrüfatına ayrılan maliyyə vəsaitlərinin verilməsi və istifadəsi proseslərinin elektronlaşdırılması, məmur-vətəndaş ünsiyyətinin minimuma endirilməsidir.

***Digər bitki əkinləri üçün də subsidiyalara ehtiyac var***

Kənd təsərrüfatı mütəxəssisi İslam İbrahimov hesab edir ki, subsidiyaların taxıl və çəltik əkini ilə yanaşı, digər çoxillik bitkilərə görə verilməsi səmərəli olardı. Aqrar sahəyə dövlət dəstəyi həyata keçirilən ölkələrin əksəriyyətində subsidiyalar bir neçə növ əkin bitkiləri üçün təyin olunur. Qardaş Türkiyədə 50-dən çox məhsul növünə 90-a qədər subsidiya verilir. Azərbaycanda bu mexanizmi tətbiq etmək daha məqsədəuyğundur, digər ölkələrin təcrübəsini öyrənməklə bu sahədə təkmilləşdirmələr aparmaq olar. Bu model tətbiq olunsa, kənd təsərrüfatının əksər sahələrinin, ənənəvi əkinçiliyin, pambıq, çay, tütün istehsalının yenidən təşkili mümkündür.

***Vergi güzəştləri aqrar sahənin inkişafında mühüm rol oynayır***

Aqrar sahəyə dövlət dəstəyi tədbirlərinin və güzəştlərin istehsalın artmasına mühüm təsir göstərdiyini bildirən mütəxəssis Rafiq Məcidovun qənaətinə görə, bu dəstəyin əsas istiqamətlərindən biri vergi güzəştləridir. Tətbiq olunan vergi güzəştləri nəticəsində kənd təsərrüfatında xərclər 10%-dən çox azalıb. Bu güzəştlər sayəsində kənd təsərrüfatı məhsulları istehsalçıları il ərzində dövlət büdcəsinə 170 milyon manata yaxın vergi ödəməkdən azad olunublar. 2001-ci ildən başlayan bu siyasət indiyədək 1,4 milyard manatdan artıq vəsaitin fermerlərdə qalmasına və həmin vəsaitin təkrar istehsalın inkişafına yönəldilməsinə imkan verib. Müqayisə üçün qeyd edək ki, dövlət kənd təsərrüfatına 793 milyon manat həcmində subsidiya verib, vergi güzəştləri nəticəsində isə bundan iki dəfədən artıq vəsait birbaşa istehsalçıların özlərində qalıb.

Kənd təsərrüfatı məhsulları istehsalçılarının dövlət tərəfindən verilmiş vergi güzəştlərindən bəhrələnməsi məhsulların maya dəyəri xərclərinin və qiymətlərin aşağı düşməsinə və məhsul bolluğunun yaranmasına imkan açır. Vergi güzəştləri kənd təsərrüfatında istehsalın artımında mühüm rol oynayır: 2001-ci ildən indiyədək bu sektorda 4,5 dəfəyə yaxın artım əldə olunub. 2001-ci ilə qədər ölkə üzrə cəmi 1,3 milyard manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilirdisə, hazırda bu rəqəm 5 milyard manatdan artıqdır. Son 10 ildə ölkədə taxıl istehsalı 1,5 dəfə, kartof istehsalı 2,5 dəfə, meyvə-tərəvəz istehsalı 1,7 dəfə, bostan məhsullarının istehsalı 1,9 dəfə, üzüm istehsalı 1,8 dəfə, şəkər çuğunduru istehsalı 5,5 dəfə, ət istehsalı 2,5 dəfə, süd istehsalı 2 dəfə, qaramalın baş sayı 1,5 dəfə artıb.

***Kənd təsərrüfatı qeyri-neft sektorunun əsas sütunlarından biridir***

Kənd təsərrüfatını qeyri-neft sektoru üçün əsas sütunlardan biri hesab edən Rafiq Məcidov, hökumətin yaxın 5 ildə kənd təsərrüfatı məhsullarının istehsalını ən azı iki dəfə artırmağı nəzərdə tutan strateji proqramına da münasibət bildirib. Sənəddə yeni aqrar layihələrin həyata keçirilməsi, iri fermer təsərrüfatları, aqrar parklar, aqrar emal komplekslərinin yaradılması, istifadəyə yaralı torpaqların ümumi dövriyyəyə cəlb edilməsi öz əksini tapıb. Bu siyasətə uyğun olaraq dövlət dəstəyi tədbirlərinin artırılması, fermerlərə ayrılan güzəştli kreditlərin həcminin genişləndirilməsi və stimullaşdırıcı addımlardan biri kimi vergi güzəştlərinin tətbiq olunması nəzərdə tutulan hədəflərə çatmağa imkan verəcək. Proqnozlara görə, təkcə vergi güzəştləri kənd təsərrüfatı məhsulları istehsalının 30 faizdən çox artmasına səbəb olacaq. Ümumiyyətlə, yaxın 5 ildə kənd təsərrüfatı məhsullarının istehsal həcminin 8-9 milyard manata çatacağı gözlənilir. Yerli istehsalın həcminin çoxalması isə Azərbaycanın ixrac imkanlarını artıracaq.

**Elbrus CƏFƏRLİ**

**Kənd təsərrüfatı məhsulları istehsalçılarına 2007-2014-cü illərdə verilən subsidiyalar** *(min manatla)*

| Yanacaq və motor yağlarına görə | Buğda və çəltik əkininə görə | Mineral gübrəyə görə | Digər | Cəmi |
|---|---|---|---|---|
| 2007-ci il | 42191,4 | 20212,1 | 3322,7 | 66116,2 |
| 2008-ci il | 53791,6 | 29680,9 | 10505,7 | 94568,2 |
| 2009-cu il | 59838,9 | 22924,9 | 21644Ş9 | 94830,4 |
| 2010-cu il | 55513,6 | 23413,2 | 30477,9 | 110332,1 |
| 2011-ci il | 52776,3 | 25189,5 | 17933,7 | 96829,4 |
| 2012-ci il | 56741,1 | 24890,5 | 32473,9 | 115035,5 |
| 2013-cü il | 57404,7 | 20153,5 | 30162,8 | 108642,7 |
| 2014-cü il | 51829,4 | 17051,1 | 37501,6 | 107290,9 |
| Cəmi: | 430 087 | 183516,4 | 173517,7 | 793645,4 |

vergi cinayətləri

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Sahib Ağayevin qurduğu biznes kifayət qədər gəlirli idi. Rəhbəri olduğu «Fizuli» kiçik müəssisəsinin fəaliyyəti yüksək təyziqli poletilen, kimyəvi maddələrdən hazırlanan xammal və digər məişət məmulatlarının alqı-satqısından tutmuş müxtəlif xidmətləri əhatə edirdi. Müəssisənin mühasibi olmadığından bu işi qeyri-rəsmi şəkildə mühasibat işlərini yaxşı bacaran yaxın dostlarından birinə həvalə etmişdi. Həmin işlər isə yalnız bank hesabları və digər kargüzarlıq sənədlərindən ibarət idi - vergiyə aid sənədlərin hazırlanmasına özü S.Ağayev cavabdehlik daşıyırdı. Sonradan həmin şəxsi də «işdən» uzaqlaşdırdı və mühasibatla bağlı qanunsuz, saxta sənədlərin hazırlanmasında ona maneçilik yaradan olmadı.

Amma onun vergidən yayınmaq cəhdləri uzun müddət davam edə bilməzdi. Yol verdiyi qanunsuzluqlar vergi orqanı əməkdaşlarının diqqətindən qaçmadı. Aparılmış tədbirlər zamanı Sahib Ağayevin «Fizuli» kiçik müəssisəni təkbaşına idarə etdiyi, vergilərin hesablanması və dövlət büdcəsinə ödənilməsini nəzərdə tutan əməliyyatları apardığı zaman xeyli sayda qanunsuzluqlara yol verdiyi aşkar edildi. Məlum oldu ki, o, vergi bəyannamələrinə gəlirləri və xərcləri barədə məqsədli şəkildə təhrif olunmuş məlumatlar daxil edib, bununla da Vergi Məcəlləsinin 16.1.1, 16.1.3, 16.1.7, 101, 105.1, 130.1, 130.2, 153-154, 159 və 177-ci maddələrinin tələblərini pozub. Onun qanunazidd hərəkətləri nəticəsində 9018,72 manat mənfəət, 17887,31 manat əlavə dəyər vergisi (ümumilikdə 26906,03 manat) dövlət büdcəsinə ödənilməkdən yayındırılıb. Sahib Ağayev Cinayət Məcəlləsinin 213.1-ci maddəsi ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunaraq barəsində «başqa yerə getməmək haqqında iltizam» qətimkan tədbiri seçilib. İstintaqa ifadə verərkən o, müəssisənin qeydiyyatda olduğu vergi orqanına bəyannamələri internet vasitəsilə elektron qaydada təqdim etdiyini və həmin bəyannamələrin tərtibində heç kəsin ona kömək göstərmədiyini bildirib.

İstintaq zamanı müəyyən edilmiş hallar təqsirləndirilən S.Ağayevin etirafı ilə bərabər, şahid ifadələri, mühasibat sənədləri, ekspert rəyləri və iş üzrə toplanmış digər sənədlərlə sübut olunub.

Sumqayıt şəhər məhkəməsinin qərarı ilə Sahib Ağayev 2 il islah işlərinə cəlb olunub.

**ELBRUS**

# Sığortalanmayan əmanətlərin həcmi artıb

Valyuta bazarında baş verən proseslər banklara əmanət yerləşdirən vətəndaşlar üçün də qeyri-müəyyənliklər doğuran bir sıra halların meydana çıxmasına səbəb olub. Xüsusilə də banklara manat depoziti ilə yüksək faizlə pul qoyan vətəndaşları qayğılandıran meyillər yaranıb. Fevral ayında baş verən devalvasiyadan sonra kommersiya banklarının əksəriyyəti manatla əmanət cəlb etmək üçün depozitlərə 15-17% təklif edirdilər. Amma yüksək faizlə banka qoyulan vəsaitlər sığortalanmadığından təminatsız əmanətlər hesab edilir ki, da müəyyən problemlər yaradır. Əmanətlərin Sığortalanması Fondunun fevralın 24-də qəbul etdiyi qərara əsasən, banklarda qorunan əmanətlər maksimum 12%-lə qəbul edilir.

Fondun 2015-ci ilin birinci yarısı ilə əlaqədar hesabatına əsasən, qorunmayan əmanətlərin xüsusi çəkisi banklara yerləşdirilmiş əmanətlərin ümumi həcminin (7,5 milyard manat) 45%-i (3,5 milyard manatdan artıq) qədərdir. Bu isə ölkədə xeyli insanın sığortalanmamış əmanətlərinin valyuta bazarında baş verə biləcək hansısa meyillər sayəsində risk altına düşəcəyinə dəlalət edir. Bank sahəsi üzrə mütəxəssis Oqtay Məmmədovun fikrincə, hazırda bank sektoru üçün mürəkkəb bir dövrdür, bir neçə kommersiya bankı öz öhdəliklərini yerinə yetirməkdə çətinlik çəkir. Onların konsolidasiyası, yaxud bağlanması riski hələ də aradan qalxmayıb. Son günlər bir neçə bank və bank olmayan kredit təşkilatının fəaliyyətinin dayandırılması bu problemi daha da aktuallaşdırır. Bank bazarında yaranmış qeyri-sabit vəziyyət, beynəlxalq reytinq agentliyi olan «Moody» təşkilatının Azərbaycan banklarının reytinqini neqtivə endirməsi banklara əmanət yerləşdirmiş vətəndaşları ehtiyatlı olmağa sövq edir. Mərkəzi Bankın banklarla bağlı tələbləri və kredit şərtlərini sərtləşdirməsi, vətəndaşların banklardakı manat resurslarını çıxarması və digər amillər bankların vəziyyətini çətinləşdirib. Belə bir vəziyyətdə vətəndaşların sığorta faizindən yüksək rəqəmlə yerləşdirdiyi əmanətlərlərə zəmanət verilməsi də sual altında qalır. Bu tendensiya «Royal Bank» və bu günlərdə müflis elan olunan «Evrobank»ın timsalında özünü qabarıq göstərir. Həmin banklara 15-16 fazilə depozit qoyan bəzi vətəndaşlar pis vəziyyətdə qalıblar. Onların vəsaitlərinin geri qaytarılması hüquqi prosedurlar çərçivəsində həll olunsa da, xeyli vaxt aparır, bəzən bu proses 1-2 il müddət tələb edir. Valyuta bazarında isə dəyişikliklər vaxtı gözləmir.

Məsələ ilə bağlı müraciətimizə Əmanətlərin Sığortalanması Fondunun hüquq şöbəsindən bildirildi ki, qurumun bankların fəaliyyətinə müdaxilə etmək səlahiyyəti yoxdur və qanunvericilikdə bununla bağlı konkret müddəa nəzərdə tutulmayıb. Banklar yüksək faizlə depozit cəlb etməkdə sərbəstdirlər və fond hansısa kommersiya bankının bağlanması və müflis olması zamanı onun müştərilərinin qorunan əmanətlərinin geri qaytarılmasına cavabdehlik daşıyır. 12 faizdən yüksək rəqəmlə yerləşdirilmiş əmanətlərin qaytarılması bankla müştəri arasında əldə olunmuş razılığa uyğun şəkildə həyata keçirilir, müflis olmuş bank müəyyən olunmuş müddət ərzində vəsaitləri öz resursları hesabına ödəyir.

Bəs bağlanan bankın maliyyə resursları çatışmadıqda vətəndaşın əmanətləri necə qaytarılır? Sığorta fondu artıq bu məsələnin hüquqi çərçivədə - «Bank haqqında» qanunun müvafiq maddələri üzrə tənzimləndiyini, pullarını geri ala bilməyən vətəndaşların problemin həlli üçün məhkəməyə müraciət etməli olduğunu bildirir. Məhkəmənin çıxardığı qərar vətəndaşın xeyrinə olsa da, qərarın icrası və ya əmanətin geri ödənilməsi müşkülə çevrilir. Çünki müflis olmuş, maliyyə ehtiyatları tükənmiş bankın borcu hansı mənbələr hesabına qaytarması məlum deyil. Gecdən gec qaytarılsa belə, dəyərini itirmiş əmanət vətəndaş üçün ikiqat itki deməkdir.

**ELBRUS**

# Yeni hesablar planı üzrə ikili yazılışların verilməsi

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

Hörmətli oxucular, yeni hesablar planında əks etdirilən bütün mühasibat hesablarında aparılacaq əməliyyatlara dair ikili yazılışların verilməsi ilə bağlı tövsiyələrimizi davam etdiririk. Bu dəfə də yeni hesablar planı üzrə 201 saylı «Xammal və materiallar» hesabı üzrə müxtəlif əməliyyatlar çərçivəsində nağdsız qaydada xammal və materialların alınmasına dair tövsiyə olunan ikili yazılışları təqdim edəcəyik. Göstərilən nümunələr şərti və öyrətmə xarakteri daşıyır.

***Misal.*** Əvvəlcə malsatanla bağlanılan alqı-satqı müqaviləsinə əsasən müəssisə (alıcı) 08.01.2015-ci il tarixdə ƏDV ilə birlikdə 11800 manat dəyərində materiallar almışdır və 15.01.2015-ci il tarixədək alıcı malsatana 11800 manatı ödəməli idi. Lakin müəyyən səbəblərə görə alıcı müəssisə materiallarının dəyərini ödəyə bilmədiyini və yalnız materialların əsas dəyərinin ƏDV-ni ödəmək qabiliyyətində olduğunu malsatana bildirmiş və 15.01.2015-ci il tarixdə alınmış materialların dəyərinin yalnız ƏDV-si ƏDV depozit hesabından malsatanın ƏDV depozit hesabına köçürülmüşdür. Aparılan danışıqlardan sonra malsatanla belə razılaşdırılmışdır ki, müəssisə keçmiş malsatana özünün əsas fəaliyyəti olan konsaltinq xidməti göstərsin. Beləliklə, müəssisə (malsatana borclu olan hazırkı konsaltinq xidməti göstərən icraçı) ilə sifarişçi (əvvəlki malsatan) arasında konsaltinq xidmətlərinin göstərilməsi haqqında müqavilə bağlanılır və 20.02.2015-ci il tarixdə xidmətlər tam başa çatdırılmaqla akt əsasında təhvil-təslim edilir. Həmin tarixdə də sifarişçiyə VHF təqdim edilmiş və göstərilmiş xidmətlərin dəyərinin yalnız ƏDV-si sifarişçinin ƏDV depozit hesabından müəssisənin ƏDV depozit hesabına daxil olmuşdur. Bu əməliyyatlarla bağlı tövsiyə olunan ikili yazılışlar aşağıdakı kimi olacaqdır.

| Tarix | Hesabın №-si və adı | Əməliyyatın məzmunu | Debet (məbləğ) | Kredit (məbləğ) |
|---|---|---|---|---|
| 08.01.2015 | 201, Xammal və materiallar | Malsatandan materiallar alınmışdır (malsatandan tam təhvil alınıb) (ƏDV-siz məbləğ) | 10000 | |
| 08.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Malsatandan materiallar alınmışdır (malsatandan tam təhvil alınıb) (ƏDV-siz məbləğ) | | 10000 |
| 08.01.2015 | 241, Əvəzləşdirilən ƏDV | Alınmış materialların dəyərinin üzərindəki ƏDV uçota alınır | 1800 | |
| 08.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Alınmış materialların dəyərinin üzərindəki ƏDV uçota alınır | | 1800 |
| 08.01.2015 | 201, Xammal və materiallar | Materialların müəssisənin anbarına daşınması üçün kənar yükdaşıma xidməti göstərən sadələşdirilmiş vergi ödəyicisi olan müəssisənin xidmətləri qəbul edilib | 700 | |
| 08.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Materialların müəssisənin anbarına daşınması üçün kənar yükdaşıma xidməti göstərən sadələşdirilmiş vergi ödəyicisi olan müəssisənin xidmətləri qəbul edilib | | 700 |
| 15.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Alınmış materialların dəyərinin yalnız ƏDV-si ƏDV depozit hesabından malsatanın ƏDV depozit hesabına köçürülüb | 1800 | |
| 15.01.2015 | 223, ƏDV depozit hesabı | Alınmış materialların dəyərinin yalnız ƏDV-si ƏDV depozit hesabından malsatanın ƏDV depozit hesabına köçürülüb | | 1800 |
| 20.02.2015 | 211, Alıcı və sifarişçilərin qısamüddətli debitor borcları | Malsatana kreditor borcun əvəzi olaraq konsaltinq xidmətləri göstərilib (ƏDV-siz məbləğ) | 10000 | |
| 20.02.2015 | 601, Satış (göstərilən xidmət, görülən iş) | Malsatana kreditor borcun əvəzi olaraq konsaltinq xidmətləri göstərilib (ƏDV-siz məbləğ) | | 10000 |
| 20.02.2015 | 211, Alıcı və sifarişçilərin qısamüddətli debitor borcları | Malsatana göstərilən konsaltinq xidmətlərinin əsas dəyərinin ƏDV-si | 1800 | |
| 20.02.2015 | 521, Vergi öhdəlikləri | Malsatana göstərilən konsaltinq xidmətlərinin əsas dəyərinin ƏDV-si | | 1800 |
| 20.02.2015 | 521, Vergi öhdəlikləri | Malsatandan alınmış VHF üzrə materialların dəyərinin ƏDV-si əvəzləşdirilir | 1800 | |
| 20.02.2015 | 241, Əvəzləşdirilən ƏDV | Malsatandan alınmış VHF üzrə materialların dəyərinin ƏDV-si əvəzləşdirilir | | 1800 |
| 20.02.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Alınmış materialların dəyərinin əsas hissəsi göstərilmiş konsaltinq xidmətlərinin dəyərinin əsas hissəsi ilə zəqət edilir | 10000 | |
| 20.02.2015 | 211, Alıcı və sifarişçilərin qısamüddətli debitor borcları | Alınmış materialların dəyərinin əsas hissəsi göstərilmiş konsaltinq xidmətlərinin dəyərinin əsas hissəsi ilə zəqət edilir | | 10000 |
| 20.02.2015 | 223, ƏDV depozit hesabı | Göstərilmiş xidmətlərin dəyərinin yalnız ƏDV-si sifarişçinin ƏDV depozit hesabından müəssisənin ƏDV depozit hesabına daxil olub | 1800 | |
| 20.02.2015 | 211, Alıcı və sifarişçilərin qısamüddətli debitor borcları | Göstərilmiş xidmətlərin dəyərinin yalnız ƏDV-si sifarişçinin ƏDV depozit hesabından müəssisənin ƏDV depozit hesabına daxil olub | | 1800 |

Cədvəldən göründüyü kimi, müəssisəyə daxil olan materialların ehtiyat kimi uçota alınan dəyəri 10700 (10000 + 700) manat, yəni materialların alış dəyəri ilə daşınması xərclərinin cəmi qədər təşkil edəcəkdir. Bizim misalda alınmış materialların əsas dəyəri (10000 manat) pul şəklində ödənilməsə də, ƏDV-si (1800 manat) ƏDV depozit hesabından malsatanın ƏDV depozit hesabına köçürülüb və buna görə də alıcı müəssisə (və yaxud da bizim misalda xidmət göstərən icracı müəssisə) malsatandan aldığı VHF üzrə ƏDV-nin məbləğini fevral ayında əvəzləşdirə bilər. Ona görə fevral ayında əvəzləşdirə bilər ki, alınmış materialların əsas dəyəri (10000 manat) üzrə öhdəliklərin bağlanması müəssisə tərəfindən onun göstərdiyi xidmətlərin təhvi-təslim edildiyi fevral ayında baş vermişdir.

# «Mobil hökumət» konsepsiyası reallaşmaq üzrədir



Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (RYTN) Mobil Hökumət Konsepsiyasının hazırlanması və həyata keçirilməsinə başlanılması məsələsini müzakirə edir. Bu barədə rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə məlumat verib. O qeyd edib ki, «Elektron hökumət»in formalaşdırılması dövlət idarəçiliyinin müasir tələblərindən biridir.

«Azərbaycanda bu sahəyə ciddi diqqət göstərilir. Ölkədə qəbul edilmiş qərarlar, yaradılmış hüquqi baza vətəndaşların dövlət xidmətlərindən əlverişli şəkildə istifadəsinə xidmət edir. İnternetin və mobil rabitənin əhatə dairəsinin genişlənməsi və vətəndaşların onlardan fəal istifadəsi «elektron hökumət» həllərinin inkişafı, mobil tətbiqlərin yaradılması və «mobil hökumət» konsepsiyasının reallaşdırılmasını zəruri edir», - deyə nazir müavini bildirib. E.Vəlizadənin sözlərinə görə, Azərbaycanda indiyədək görülmüş işlər ölkədə ən müasir texnologiyalara əsaslanan səmərəli dövlət idarəçiliyinin formalaşmasına xidmət edir.

# Bakıda Air Cargo-2015 VI Xəzər sammiti keçiriləcək

Oktyabrın 5-dən 7-dək «Euroavia international»ın təşkilatçılığı ilə Bakıda çarter yükdaşımalarının inkişafına həsr olunan Air Cargo-2015 VI Xəzər sammiti keçiriləcək. AZƏRTAC «euroavia.com» saytına istinadla xəbər verir ki, sammitin gündəliyində neft-qaz sənayesi və hava nəqliyyatı ilə tez xarab olan malların daşınması, həmçinin təchizat prosesinin təkmilləşdirilməsi məsələləri yer alıb.

Sessiyalar çərçivəsində «Avia yükdaşımalarının gələcəyi», «Yük göndərənlərin tələblərinin qlobal trendlərinin təhlili», «Neft-qaz sənayesi və hava nəqliyyatı ilə yükdaşımalar», «Yükdaşıyıcıların perspektivləri», «Tez xarab olan məhsulların hava nəqliyyatı ilə daşınmasının təkmilləşdirilməsi» mövzuları üzrə məsələlər müzakirə olunacaq. Tədbir MDB ölkələri və Mərkəzi Asiya bazarlarındakı vəziyyətin təhlili və müzakirəsi ilə sona çatacaq.

vergi təqvimi

| SENTYABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
| 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 |
| 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 |
| 28 | 29 | 30 | | | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

21 sentyabr - «(1-1)», «3», «4», «7», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

beynəlxalq panoram

# Yunanlar seçkilərdən sonra 24,7 milyard avro vergi ödəməli olacaqlar

Ölkədəki fiziki şəxslərin və şirkətlərin yaxın aylarda ödəməli olduqları 24,7 milyard avroluq məbləğin təxminən yarısı (12,3 milyard) ƏDV və aksiz vergilərinin payına düşür. Ödənilməli olan vergilər sırasında daşınmaz əmlak, mənfəət, əməkhaqqı, artırılmış həmrəylik vergisi və avtomobillər üçün vergi əsas yer tutur. ölkənin nüfuzlu «Kathimerini» qəzetinin yazdığına görə, borc kimi qalan vergilərin əksəriyyəti 20 sentyabrdan - seçkilərdən sonra ödəniləcək: «Avqustun 31-dən başlayaraq gələn ilin fevralınadək vergi ödəyicilərinin əksəriyyəti hər ayın sonunda bu vergiləri Yunanıstan dövlətinə ödəməli olacaqlar. Maliyyə Nazirliyinin öz işini yaxşı təşkil etməməsi son aylar böyük məbləğdə verginin yığılıb qalmasına səbəb olub ki, bu da ev təsərrüfatları və müəssisələr üçün böyük problemlər yaradır. Pis planlaşdırma ucbatından vaxtı keçmiş borcların məbləği artır».

Məqalədə göstərilir ki, vergi ödəyiciləri borclarını bu ilin fevralından ödəməyə başlamış olsaydılar, bölgü daha düzgün aparılmış və vergi ödəyiciləri öz öhdəliklərini yerinə yetirmək üçün daha böyük imkan qazanmış olardılar. Lakin seçkilərin keçirilməsi ödəmələrə erkən başlamağa imkan vermədi. İndi isə elə vəziyyət yaranıb ki, avqustun 31-dən noyabrın sonunadək əhali 3 milyard avro, müəssisələr isə 2 milyard avro mənfəət vergisi ödəməli olacaq.

Bundan əlavə, daşınmaz əmlak üçün ümumi verginin məbləği 3,2 milyard avro olacaq. Bu verginin ilk hissəsi oktyabrın, qalanı isə fevralın sonunda ödəniləcək.

Bu il mühərrikinin həcmi 2,5 min kubmetrdən artıq olan avtomobil, eləcə də təyyarə, hovuz və yaxta sahibləri daha artıq vergi ödəyəcəklər. Qanunvericiliyə əsasən, onlar üçün verginin dərəcəsi 10%-dən 13%-ə qaldırılıb. Bu vergi ödəyiciləri vergi bəyannamələri üzrə əlavə 47 milyon avro ödəyəcəklər.

Dövlətə borcu olanların da ödənişləri çox olacaq. İlin sonuna qədər onlar 800 milyon avro borcu qaytarmalıdırlar. Həmrəylik vergisi, əməkhaqqına və pensiyalara aid vergilər də (ümumi məbləği 2,3 milyard avro) ilin sonuna qədər ödənilməlidir. Bundan əlavə, avtomobillər üçün 2016-cı ilə aid 1,1 milyard avro məbləğində vergi də bu ilin dekabrında ödənilməlidir.

Qeyd edək ki, ölkədə vergilərin artırılması üçüncü yardım proqramı barədə memorandumda nəzərdə tutulub - bu sənədə əsasən, Yunanıstan 86 milyard avroya qədər kreditlər ala bilər.

## Xəbər lenti

**Çin Xalq Respublikası**nda milli iqtisadiyyatı stimullaşdırmaq məqsədilə mikrobiznes üçün vergi güzəştlərini daha iki il uzatmaq qərara alınıb. Avqustun 19-da ölkənin Nazirlər Kabineti bəyan edib ki, kiçik biznesi dəstəkləmək üçün hazırda qüvvədə olan güzəştlərin müddəti uzadılmaqla yanaşı, bəzi əlavə güzəştlər də tətbiq olunacaq.

**Almaniya**da vergi qaçaqçılığını rəsmi dairələrə etiraf edənlərin sayı bu il gözləniləndən artıq olub. İlin ilk altı ayında 10500 vergi ödəyicisi rəsmi dairələrə müraciət edib.

**Türkiyə**nin Maliyyə Nazirliyi Artvin əyalətinin dağıdıcı selə məruz qalmış Arhavi, Borçka və Hopa rayonlarındakı bütün vergi ödəyiciləri üçün vergi bəyannamələrinin təqdim olunma müddətini 2016-cı ilin 15 martına qədər uzadıb.

**Hollandiya**da vergi borcunu və digər dövlət qurumlarına ödəmələri vaxtında ödəməyən şəxslər təyyarə ilə səfərə çıxa bilmir. Hava limanlarında pasport nəzarəti ilə yanaşı, dövlət büdcəsinə borc üzrə də nəzarət tədbirləri görülür.

**Rusiya**nın Federal Vergi xidməti saytında yeni istifadəyə verilmiş elektron xidmət «Fiziki şəxslərin nəqliyyat vergisi kalkulyatoru» adlanır. Onun köməyi ilə fiziki şəxslər ödəməli olduqları nəqliyyat vergisini özləri müstəqil şəkildə hesablaya bilirlər. Vergi kalkulyatoru tanışlıq səciyyəsi daşıyır və istifadəçilərdən qeydiyyat tələb etmir.

**Ukrayna**nın maliyyə nazirinin müavini xanım Y.Makeyeva bildirib ki, ölkənin investisiya cəlbediciliyinin yüksəldilməsi üçün vergi yükünün yüngülləşdirilməsinə ehtiyac var. Onun sözlərinə görə, sahibkarları Ukraynaya sərmayə qoymağa təşviq etmək üçün ölkədə vergiqoymanın səviyyəsi Qərbi Avropa ölkələri ilə müqayisədə aşağı olmalı və vergitutma qaydaları maksimum şəkildə sadələşdirilməlidir. Hazırda ölkədə kölgə iqtisadiyyat sektoru faktiki olaraq UDM-in yarısını təşkil edir.

«Biz çox istərdik ki, vergi sisteminin islahatı biznesin kölgədən çıxmasına və bütün zəruri vergilərin dövlət büdcəsinə ödənilməsinə kömək etsin», - Y.Makeyeva deyib.

**Qırğızıstan**ın Rusiyada işləyən vətəndaşlarının gəlirləri 2015-ci il avqustun 12-dən 13% dərəcə ilə vergiyə cəlb olunur. Bunu Qırğızıstanın Avrasiya iqtisadi ittifaqına qoşulması barədə sazişin 12 avqustdan qüvvəyə minməsi ilə izah ediblər.

**Birləşmiş Ərəb Əmirlikləri**ndə nəşr olunan «Əl İttihad» qəzetinin məlumatına görə, qeyri-neft mənbələrindən gəlirlərin artırılması məqsədilə hökumət əlavə dəyər vergisinin tətbiqi ilə bağlı layihə hazırlayıb. Vergi dəbdəbəli həyat əşyalarına, alkoqollu içkilərə, tütün məhsullarına tətbiq olunacaq, gündəlik həyat üçün zəruri olan mallar isə bu vergidən azad ediləcək. Qeyd edək ki, bu, ölkədə ƏDV tətbiqi üzrə ilk təşəbbüsdür. Hökumət gözlənilən verginin dərəcəsini hələ açıqlamayıb.

**ABŞ** Daxili Gəlir Xidmətinin yaydığı bəyanatda bildirilir ki, ölkə üzrə təxminəm 220000 fərdi vergi ödəyicisinə tezliklə onların vergilərə dair məlumatlarının hər hansı icazə olmadan üçüncü tərəfin əlinə keçə bilməsi barədə məktub göndəriləcək. Bu ilin may ayında da internet fırıldaqçıları tərəfindən vergi ödəyicilərinin məlumatlarının ələ keçirilməsi barədə məlumat yayılmışdı.

**Yeni Zelandiya**da Avqustun 24-də qəbul edilmiş yeni qanunvericilik aktının tələblərinə əsasən, əmlak sərmayəçiləri gəlir vergisini ödəmədən öz əmlaklarını sata bilməyəcəklər.

Xarici ölkələrin təcrübəsi

# Belarus Respublikasının vergi sistemi: *fiziki şəxslərin gəlir vergisi*



Fiziki şəxslər dövlət və bələdiyyələr tərəfindən tutulan gəlir vergisinə cəlb olunurlar. Ümumiyyətlə, bütün səviyyələrdə tutulan vergilər Vergi Məcəlləsinin ümumi hissəsi və digər qanunlarla tənzimlənir. Bələdiyyələrin vergiləri Vergi Məcəlləsi və digər qanunlarda nəzərdə tutulmuş çərçivədə tutmaq səlahiyyəti var.

Rezidentlər bütün dünya üzrə əldə etdikləri gəlirlər, qeyri-rezidentlər isə Belarus mənbələrindən əldə etdikləri gəlirlər üzrə gəlir vergisinə cəlb olunurlar. Ər və arvad öz gəlirlərinə görə ayrı-ayrılıqda vergiyə cəlb olunur. Fiziki şəxs təqvim ili ərzində Belarusda 183 gündən artıq olarsa gəlir vergisi məqsədləri üçün Belarus rezidenti hesab olunur. Əgər şəxs Belarusda yalnız tibbi müalicə və istirahət məqsədilə qalırsa, həmin günlər nəzərə alınmır. Eynilə, tibbi müalicə və istirahət məqsədilə xaricdə keçirilmiş günlər də Belarusda keçirilmiş günlər hesab olunur.

Gəlir vergisi, bir qayda olaraq, ödəmə mənbəyində tutulur. Sahibkarlıq və peşəkar fəaliyyətdən gəlir əldə olunduqda isə vergi qiymətləndirmə əsasında tutulur. Bu prosedur gəlirin ödəmə mənbəyində tutulmadığı bütün digər hallara da tətbiq edilir.

Muzdlu işdən əldə olunan gəlirlərə əməkhaqqı və natura şəklində ödəmələr aid edilir.

*Əməkhaqqı:* Əmək müqaviləsi əsasında muzdlu işdən əldə olunan əməkhaqqı, gəlir və hər hansı digər ödəmə ümumi dərəcə ilə gəlir vergisinə cəlb olunur. Vergi işəgötürən tərəfindən ödəmə mənbəyində tutulur.

*Natura şəklində ödəmələr:* Bir qayda olaraq, muzdlu işdən əldə olunan gəlir kimi vergiyə cəlb olunur. Qanunvericilikdə nəzərdə tutulan ümumi qiymətləndirmə qaydaları natura şəklində ödəmələrə də tətbiq olunur.

*Sahibkarlıq və peşəkar fəaliyyətdən əldə olunan gəlirlər:* sahibkarlıq fəaliyyəti ilə məşğul olan və ya notarius kimi qeydiyyatdan keçmiş fiziki şəxslər, adətən, bu cür fəaliyyətdən əldə olunan gəlirlərə görə (gəlir onların xalis gəlirləri və aidiyyəti xərcləri arasındakı fərqdən ibarətdir) gəlir vergisinə cəlb olunurlar. Gəlirdən çıxılan xərclər müəyyən edilərkən mənfəət vergisi üzrə tətbiq edilən qaydalar tətbiq edilir. Bununla belə, fiziki şəxs xalis gəlirindən 10% çıxılması seçimini də edə bilər.

Peşəkar fəaliyyətdən əldə olunan gəlirlər üzrə vergitutma bazası xalis gəlirlər və aidiyyəti xərclər arasındakı fərqdən ibarətdir. Peşəkar gəlirlərin bəzi növlərinə münasibətdə vergi ödəyicisi faktiki xərclər əvəzinə aşağıda qeyd olunan birdəfəlik çıxılmaları tətbiq edə bilər (xalis gəlirin faizi kimi göstərilir):

- musiqi əsərlərinin və heykəllərin yaradılması, rəsm əsərləri və digər oxşar işlərdən əldə olunan gəlir üzrə 40%;
- kinematoqrafiya filmlərinin (videolentlər daxil olmaqla) çəkilməsi, fotoqraf, dizayner, arxitektor və s. fəaliyyəti, həmçinin ixtira və sənaye nümunələrinin yaradılmasından (istifadə hüququnun verildiyi 2 ildə əldə olunan) əldə olunan gəlir üzrə 30%;
- ədəbi və bədii nümayişlər (məsələn, teatr, balet və səhnə nümayişləri), bədii fəaliyyət və məlumat bazaları, ensiklopediyalar, kompüter proqramları, elmi əsərlər və dizayn işinin yaradılmasından əldə olunan gəlir üzrə 20%.

Sahibkarlıq və peşəkar fəaliyyətdən əldə olunan gəlirlər vergiyə qiymətləndirmə proseduru əsasında cəlb olunur. Gəliri ödəyən şəxs tərəfindən ödəmə mənbəyində tutulan vergilər vergi ödəyicisinin son vergi öhdəliyi müəyyən edilərkən nəzərə alınır. Dövriyyəsi 900 min avrodan az olan vergi ödəyiciləri sadələşdirilmiş vergi sistemindən istifadə edə bilərlər.

*İnvestisiya gəlirləri:* Yerli və xarici mənbələrdən əldə olunan dividentlər rezident agent tərəfindən ödənildikdə ödəmə mənbəyində, digər hallarda isə qiymətləndirmə əsasında 12% dərəcə ilə vergiyə cəlb olunur. Dividentlər üzrə çıxılmalara və güzəştlərə icazə verilmir.

Belarus bankı tərəfindən idarə olunan investisiya fondundan əldə olunan investisiya gəlirləri vergidən azaddır. Bank hesabları və dövlət, bələdiyyə və bank istiqrazları, həmçinin Belarus rezidenti olan hüquqi şəxslər tərəfindən 1 aprel 2008 - 1 yanvar 2015-ci il tarixləri arasında təqdim edilmiş istiqrazlar vergidən azaddır. Faizlərin digər növləri isə 12% dərəcə ilə ödəmə mənbəyində vergiyə cəlb olunur. Digər hallarda vergi qiymətləndirmə əsasında, ümumi dərəcə ilə tutulur.

***Davamı növbəti sayımızda***

*İcmalı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



**Yuxarıdan aşağı:** 1.Əsl adı Əli Əhməd Səid Əsbər olan, həyatının böyük hissəsini Livan və Fransada keçirən və əsərlərini doğma ərəb dilində yazan, həmçinin «Yeni poeziya» hərəkatının öndə gedənlərdən biri hesab olunan ərəb şairi; 2.Alken sinfinə daxil olan doymamış karbohidrogen; 3.Asiya və Afrika səhralarında əsən çox şiddətli, isti və quru külək; 4.İsmayıllı rayonunda kənd; 5.Azərbaycanın qədim milli xörəklərindən biri; 6.Səhralarda küləyin təsiri altında sovrulan qum təpəsi; 9.Kollektiv yürüşü müşayiət etmək və müəyyən əhval-ruhiyyə yaratmaq üçün musiqi əsəri; 13.Atmosferdəki havanın əsas tərkib hissəsini təşkil edən maddələrdən biri; 15.Bütün dövlətlərdə qəbul edilmiş hərbi dəniz donanmasında yüksək rütbə; 16.Səmanın cənub yarımkürəsində bürc; 17.İri dəniz məməlisi; 18.Rusiyada XX əsrin əvvəlində iki futbol klubunun birləşməsindən əmələ gələn yeni futbol klubunun adı; 20.Yundan və ya pambıqdan toxunan xovsuz xalça növü; 21.Qara dənizin Gürcüstan sahilində qəsəbə. Kurort kimi məşhurdur. **Soldan sağa:** 1.Naxçıvan şəhərinin cənub-şərqində, Araz çayı sahilində yerləşən hərbi istehkam tipli qala; 5.Xalq arasında yayılmış adət, ənənə; 7.Nikbinlik; 8.Cəlilabad rayonunda kənd; 10.Xanəndə, Azərbaycanın xalq artistinin adı (1934-2008); 11.ABŞ-da ştat; 12.Karotin, C vitamini, şəkər, üzvi turşular və pektin maddələrlə zəngin olan bitki; 14.Xörək hazırlayan usta; 19.ABŞ kinorejissoru və prodüserinin soyadı. «Xaç atası» filminin ssenaristi; 21.Rusiya Federasiyasının Lipetsk vilayətində şəhər; 22.Qadın adı; 23.Kartof, kələm, çuğundur, yumurta və sirkə ilə hazırlanan soyuq yemək (qəlyanaltı); 24.Havaya sovrulan torpaq dənəcikləri; 25.Süsənkimilər fəsiləsindən çoxillik bitki növü; qarğasoğanı.



*Kartof, kələm, çuğundur, yumurta və sirkə ilə hazırlanan soyuq yemək (qəlyanaltı)*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Nitrat; 2.Oblomov; 3.Oksid; 4.İbadan; 5.Frans; 6.Skuter; 9.Duma; 13.Elki; 15.Çovurar; 16.Ksenon; 17.Romans; 18.Ananas; 20.Royal; 21.Dadlir. **Soldan sağa:** 1.Neologizm; 5.Fəs; 7.Talisman; 8.Maku; 10.Armud; 11.Aluksne; 12.Evren; 14.Xalça; 19.Sirokko; 21.Divan; 22.Noya; 23.Çaldıran; 24.Nal; 25.Ekslibris.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14000

## idman

# Azərbaycan Güləş Federasiyasının təklifi qəbul edilib

*2018-ci ildə Argentinanın paytaxtı Buenos-Ayresdə yeniyetmələrin III Yay Olimpiya Oyunları keçiriləcək. Beynəlxalq Olimpiya Komitəsi (BOK) ayrı-ayrı idman növləri üzrə beynəlxalq federasiyalardan gələn təklifə əsasən yeniyetmələrin Yay Olimpiya Oyunlarında iştirakçı idmançıların sayını artırmaq barədə qərar qəbul edib.*

Azərbaycan Güləş Federasiyasının birinci vitse-prezidenti, Dünya Güləş Birliyi (DGB) idarə heyətinin üzvü Namiq Əliyev bir müddət əvvəl qurumun iclasında yeniyetmələrin Yay Olimpiya Oyunlarında güləş üzrə iştirakçıların sayının artırılması barədə təkliflə çıxış edib. Bu təklif idarə heyəti üzvləri, eləcə də DGB prezidenti Nenad Laloviç tərəfindən də müsbət qarşılanıb və BOK rəhbərliyi qarşısında bu məsələni qaldırmaq barədə razılıq əldə edilib.

Beləliklə, BOK idarə heyətinin növbəti iclasında bu məsələ müzakirə edilib və müsbət həllini tapıb. Belə ki, 2018-ci ildə yeniyetmələrin III Yay Olimpiya Oyunlarının güləş yarışlarında çəki dərəcələri hər bir növdə 6 çəki olmaqla 18-ə çatdırılıb. Buna qədər bu say 14 idi. Beş çəkidə sərbəst, 5 çəkidə yunan-Roma, 4 çəki dərəcəsində isə qadın güləşi üzrə yarışlar keçirilirdi.

Bu qərarın qəbulundan sonra Nenad Laloviç Azərbaycan Güləş Federasiyasına məktub ünvanlayaraq Namiq Əliyevi təbrik edib, dünyada güləşin davamlı inkişafı üçün verdiyi təklifə və birgə əməkdaşlığa görə təşəkkürünü bildirib.

Yeniyetmələrin Yay Olimpiya Oyunlarının güləş yarışlarında çəki dərəcələrinin sayının artırılmasına münasibət bildirən Namiq Əliyev bu məsələnin bir neçə ildir müzakirə edildiyini vurğulayaraq deyib: «Biz neçə il idi ki, bu təklifi vermişdik və müzakirələr gedirdi. Beynəlxalq Olimpiya Komitəsi tərəfindən təklifimiz müsbət dəyərləndirildi və yeniyetmələrin Yay Olimpiya Oyunlarında çəki dərəcələri artırıldı. Bu, Azərbaycan üçün çox yaxşı haldır. Bundan sonra daha çox medal qazanmaq imkanımız olacaq».

Xatırladaq ki, 2010-cu ildə Sinqapurda, 2014-cü ildə Nanjinqdə keçirilən yeniyetmələrin Yay Olimpiya Oyunlarında hər bir ölkə güləş yarışlarında maksimum 5 idmançı ilə (2 sərbəst, 2 yunan-Roma, 1 qadın) təmsil olunmuşdu. Güləşçilərimiz maksimum sayda lisenziya əldə etməklə yeniyetmələrin həm birinci, həm də ikinci Yay Olimpiya Oyunlarında tam heyətlə iştirak etmiş Sinqapurda 4 qızıl və 1 gümüş, Nancinqdə isə 3 qızıl və 2 gümüş medal qazanmışdılar.

# Maksim Averi Rioya növbəti lisenziya xallarını qazanıb

Azərbaycanın kontinental velosiped komandası «Synergy Baku» növbəti Avropa turunda mübarizə aparıb. Velosipedçilərimiz avqustun 30-da Xorvatiyanın paytaxtı Zaqrebdə start götürməklə Sloveniyanın Novo Mesto şəhərində yekunlaşan birgünlük «Klassik Xorvatiya-Sloveniya» yarışında iştirak ediblər. Beynəlxalq Velosipedçilər İttifaqının 1.2 kateqoriyalı yürüşündə iştirakçılar 178 km məsafə qət ediblər. «Synergy Baku» üzvlərindən 5 nəfər - Maksim Averin, Yannis Tamuridis, Markus Eybeger, Samir Cəbrayılov və Matey Müqerli finişi yarış qalibi, Sloveniyanın «Adria Mobil» komandasının üzvü Marko Kumpla eyni vaxtda keçiblər - 4 saat, 5 dəqiqə, 6 saniyə.

Fotofinişə velosipedçilərimizdən ən yüksək nəticəni Azərbaycanın Elit yığma komandasının da şərəfini qoruyan Maksim Averin qazanıb. İdmançımız yarışı 7-ci yerdə başa vurub. Bu isə təmsilçimizə Rio-2016 Yay Olimpiya Oyunlarına daha 6 lisenziya xalı qazandırıb. Bununla da Maksimin 4 illiyin zirvə yarışında iştirakı üçün topladığı xalların sayı 148-ə çatıb.



# Güləşçimiz dünya çempionatının qızıl medalını qazanıb

Avqustun 25-dən 30-dək Bosniya və Hersoqovinanın paytaxtı Sarayevo şəhərində keçirilən yeniyetmə güləşçilərin dünya çempionatı başa çatıb. Sərbəst güləşçilərin ilk yarış günündə güləşçilərimiz 1 gümüş (İsmayıl Abdullayev (69 kq)) və 2 bürünc (Şahin Muxtarov (42 kq) və Fazil Həsənov (58 kq)) medal qazanıb. Çempionatın son günündə 46, 54, 63, 76 və 100 kq çəkidə qaliblər müəyyənləşib. Güləşçilərimiz günü iki bürünc medalla başa vurub. 63 kq çəkidə mübarizə aparan Orxan Abbasov Qırğızıstan, Meksika və Gürcüstandan olan rəqiblərini üstələsə də, yarımfinalda Rusiya təmsilçisinə uduzub. Bürünc medal uğrunda görüşə çıxan güləşçimiz yaponiyalı rəqibinə qalib gəlib və Dünya çempionatını fəxri kürsünün üçüncü pilləsində başa vurub.

76 kq çəki dərəcəsində təmsilçimiz Əhliman Quliyev Misir və Macarıstandan olan rəqiblərinə qalib gəlib, ancaq 1/4 finalda Rusiya təmsilçisi ilə görüşü uduzub. Rəqibin finala yüksəlməsi ilə təsəlliverici görüşə qatılan güləşçimiz CAR idmançısını asanlıqla məğlub edib. Həlledici görüşdə Əhliman İran təmsilçisinə də tam üstünlüklə qalib gəlib və dünya çempionatının bürünc medalına sahib olub. Son iki gündə mübarizə aparan sərbəst güləşçilərimiz ümumilikdə 1 gümüş və 4 bürünc medal qazanmaqla, komanda hesabında çempionatı dördüncü sırada tamamlayıb.

Xatırladaq ki, dünya çempionatının ilk iki günündə mübarizə aparan yeniyetmə yunan-Roma güləşçiləri yarışı 3 bürünc (Fail İsgəndərov (42 kq), Xancavad Məcidzadə (50 kq), Ülvi Qənizadə (69 kq)) medalla başa vurub. Çempionatda 5 güləşçi ilə təmsil olunan qızlarımız isə 1 qızıl (Leyla Qurbanova (52 kq)) və 2 bürünc (Zemfira Ələkbərli (38 kq) və Şəbnəm Əhmədova (56 kq)) medal qazanıb.

## mozaika

texnologiya

### Ən güclü

Osaka Universitetinin tədqiqatçılar qrupu dünyanın ən güclü lazerini yaratmağa nail olub. Qurğunun buraxdığı şüanın gücü 2 petavatt təşkil edir. Bu möcüzəli (və təhlükəli) qurğu «LFEX» (Laser for Fast Ignition Experiments) adlandırılır və uzunluğu təxminən 92 metrdir.

Maraqlıdır ki, böyük gücə malik olan bu lazer iş üçün enerjidən az istifadə edir. O, cəmi bir neçə yüz coul sərf edir ki, bu da mənzilimizdəki mikrodalğalı sobanın istifadə etdiyi enerjiyə bərabərdir. Lakin böyük güc qurğunun generasiyasının az müddətli olması hesabına əldə edilir. Xatırladaq ki, güc mahiyyət etibarilə müəyyən müddət ərzində sərf edilən enerji deməkdir. Təqdim olunan lazer yalnız 2 pikosaniyə ərzində davam edən şüanı generasiya edir və bu səbəbdən çıxış gücü çox olur.

Buna lazer axınının sürətləndiricisi qismində işləyən şüşə «lampalar» sayəsində nail olunur.

Yaponiya alimləri bununla kifayətlənmirlər. Onlar 10 petavatt gücündə lazer yaratmağı planlaşdırırlar.



sağlam həyat tərzi

### Qida təhlükəsizliyi məsuliyyətdir

*Dünyada hər il təxminən 2 milyon insanın, xüsusilə uşaqların ölümü təhlükəli qidalarla bağlıdır. Ərzaq məhsullarının tərkibində olan patogen bakteriya, virus, parazit və ya kimyəvi maddələr ishaldan tutmuş xərçəngə qədər 200-dən çox xəstəliyə səbəb olur.*

Qida məhsulları üçün daim yeni təhlükələr var. Ərzaq məhsullarının istehsal texnologiyasında bölüşdürülməsi və istehlakı, eləcə də ətraf mühitdə baş verən dəyişikliklər, mikroblara müqavimət və digər bu kimi amillər hər bir ölkənin milli qida təhlükəsizliyi sistemi üçün problemlər yaradır. Bununla yanaşı, beynəlxalq ticarət əlaqələrinin genişlənməsi təhlükəli məhsulların yayılması ehtimalını artırır.

Dünya Səhiyyə Təşkilatı bildirir ki, istifadə edilən qida məhsullarının təchizatı mənbələri getdikcə qloballaşdığından, bütün ölkələr-də ərzaq təhlükəsizliyi sistemlərini gücləndirmək lazımdır. Bu səbəbdən, Dünya Səhiyyə Təşkilatı qida təhlükəsizliyinin möhkəmləndirilməsinə, o cümlədən qida ilə ötürülən xəstəliklərin yayılmasının qarşısını almağa çalışır. Eyni zamanda, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) da beynəlxalq informasiya şəbəkəsi vasitəsilə ərzaq təhlükəsizliyi sahəsində fövqəladə hadisələr haqqında bütün ölkələri xəbərdar edir.

Qida təhlükəsizliyi ortaq bir məsuliyyətdir. Ərzaq istehsalı zəncirində hamı təhlükəsizlik qaydalarını gözləməlidir. Bu qaydalara fermerlər və istehsalçılar, eləcə də satıcılar və istehlakçılar ciddi əməl etməlidirlər.



### Xəbərçi ayaqqabı

*«MediaTek LinkIt» şirkəti valideynlərə uşaqlarının hərəkət istiqamətini izləməyə imkan verən ağıllı ayaqqabı hazırlayıb. Ayaqqabı ağıllı saat üçün hazırlanmış Aster MT2502 texnoloji platforması əsasında yaradılıb. Bu platforma GSM və GPRS şəbəkələrini dəstəkləyir.*

Ayaqqabı və onun kiçik sahibinə smartfon üçün hazırlanmış xüsusi proqram vasitəsilə nəzarət edilir. Valideynlər bir neçə rejimə malik proqramda müəyyən ərazini təyin edə bilərlər. Uşaqlar həmin ərazidən uzaqlaşdıqda qadjetə rejimin pozulması haqqında xəbərdarlıq siqnalı ötürülür.

520 miliamper/saat tutumu olan batareya ilə qidalanan ağıllı uşaq ayaqqabısının qiyməti təxminən 100 ABŞ dolları təşkil edir. Ayaqqabıdan məlumatların ötürülməsi üçün bulud texnologiyalarından istifadə olunur. Lakin onun hakerlərdən müdafiəsi üçün istehsalçıların nə kimi tədbirlər gördükləri hələlik məlum deyil.



ixtira

### Diş plombu lazım olmayacaq?

Yapon alimi Kazuye Yamaqaşi şəxsi gigiyena sahəsində inqilabi ixtiraya imza atıb. Onun kəşf etdiyi diş pastası tez və ağrısız şəkildə dişlərdəki çatları və deşikləri tutmağa, həmçinin stomatoloqun köməyi olmadan diş emalını bərpa etməyə imkan verəcək.

Bu pasta tərkibinə görə diş emalını xatırladır və onu dişdə yaranmış çata çəkmək lazımdır. Yeni maddə dişləri təşkil edən əsas element - hidroksil-apatitlə aparılmış çoxsaylı təcrübə nəticəsində əldə edilib.

Əvvəlcə pastanın tərkibindəki oksigen dişin üzərindəki çatı yüngülcə əridir. Lakin üç dəqiqə sonra o kristallaşır və təbii emalın strukturuna birləşərək süni maddə əmələ gətirir. Əlavə etmək lazımdır ki, bu, həm də bakteriyalar əleyhinə əla vasitədir.



Yapon stomatoloqların apardığı təcrübələr təsdiq edir ki, müalicə olunmuş diş sağlam dişdən heç nə ilə fərqlənmir. Həmin fərqi heç mikroskopun köməyi ilə də görmək mümkün deyil.

**Müdriklər deyib ki...**

*«Həyatda ən böyük zəfər heç bir zaman yıxılmamaq deyil, hər yıxılanda ayağa qalxmağı bacarmaqdır».*

*Nelson Mandela (1918-2013)*

